**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İxrac potensialından istifadənin stimullaşdırılmasının institutsional təminatı məsələləri" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Verdiyeva Aytəkin Zirəddin**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**________________ imza**
**"____" ________________ 20__-ci il**

# "İxrac potensialından istifadənin stimullaşdırılmasının institutsional təminatı məsələləri"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 06040 - İqtisadiyyat
**İxtisaslaşma:** İqtisadiyyatın hüquqi tənzimlənməsi
**Qrup:** 32

**Magistrant**
**Verdiyeva Aytəkin Zirəddin**
**________________ imza**

**Elmi rəhbər**
**i.e.n., dos. İsayev Söhrab Zülfüqar**
**________________ imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab**
**________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**
**________________ imza**

**BAKI – 2020**

## Elm andı

Mən, Verdiyeva Aytəkin Zirəddin qızı and içirəm ki, "İxrac potensialından istifadənin stimullaşdırılmasının institutsional təminatı məsələləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# İXRAC POTENSİALINDAN İSTİFADƏNİN STİMULLAŞDIRILMASININ İNSTİTUTSİONAL TƏMİNATI MƏSƏLƏLƏRİ

## XÜLASƏ

**Mövzunun aktuallığı: Ölkənin ixrac potensialından istifadənin stimullaşdırılması müasir dünyada ən vacib məsələlərdən biridir. Belə ki, ixrac potensialının inkişafı birbaşa iqtisadiyyatın inkişafına təsir göstərir. Hazırda ixracın diversifikasiyası və artırılması üçün dövlət proqramları hazırlanır və həyata keçirilir. Dissertasiyada bu tədbirlərin genişləndirilməsi və xarici təcrübədən istifadənin tətbiqi istiqamətləri araşdırılmışdır.**

**Tədqiqatın məqsədi və vəzifələri: Dissertasiya işinin məqsədi ölkənin ixrac əməliyyatlarının hazırkı vəziyyətini təhlil etmək, ixrac potensialını təhlil etmək və ixracın diversifikasiyası üçün təhlillərin aparılmasıdır.**

**İstifadə edilmiş tədqiqat metodları: Bu tədqiqatda bir neçə metoddan istifadə edilmişdir. İxrac, ixrac potensialı və ona təsir edən amillər nəzəri metodlarla təhlil edilmişdir. Ümumilikdə isə, müşahidə, qruplaşdırma, müqayisə, sistematik analiz metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın məlumat bazası: Dissertasiyanın məlumat bazası olaraq dövlət orqanlarının statistik hesabatları, həmçinin mövzu ilə əlaqəli tədqiqat mövzularından və s. ədəbiyyatlardan istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudlaşdırılması: Tədqiqatın əsas məhdudiyyəti son statistik məlumatların olmaması və ya qeyri-dəqiq olmasıdır.**

**Tədqiqatın yeniliyi və praktik nəticələri: Qeyri-neft sektorunun inkişafı, ixrac potensialının tənzimlənməsi və ixracatın böyüməsinə mənfi təsirlərin məhdudlaşdırılması istiqamətləri təhlil edilmişdir.**

**Nəticələrin elmi-praktiki əhəmiyyəti: Dissertasiya mövzusundan həm iqtisadi fənnlərin tədrisində əlavə material kimi, həm də ixracın artırılması üçün təhlil materialı olaraq istifadə edilə bilər.**

**Açar sözlər: İxrac potensialı, ticarət, diversifikasiya, Ümumdünya Ticarət Təşkilatı.**

**ISSUES OF INSTITUTIONAL SUPPORT TO STIMULATE THE USE OF EXPORT POTENTIAL**


## SUMMARY

**The actuality of the subject: Stimulating the use of the country's export potential is one of the most important issues in the modern world. Thus, the development of export potential directly affects the development of the economy. Currently, state programs are being developed and implemented to diversify and increase exports. The dissertation examines these measures and the use of foreign experience.**

**Purpose and tasks of the research: The purpose of the dissertation research is to analyze the current state of the country's export operations, analyze the export potential and conduct research to diversify exports.**

**Used research methods: Several methods were used in this research. Export, export potential and factors influencing it were analyzed with theoretical methods. In general, observation, grouping, comparison, systematic analysis methods were used.**

**The information base of the research: The information base of the dissertation is provided by the Azerbaijan State Statistics Committee, the Ministry of Economy, the Azerbaijan State Customs Committee, documents and materials of international organizations, statistical materials, scientific researches on the topic, etc.**

**Restrictions of research: The main limitation of the research is the lack or inaccuracy of recent statistics**

**The novelty and practical results of investigation: The development of the non-oil sector, the regulation of export potential, and the limitation of the negative effects on the growth of exports were analyzed.**

**Scientific-practical significance of results: The dissertation can be used both as additional material in economics and to increase exports.**



**Keywords: export potential, trade, diversification, World Trade Organization.**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AB** | Avropa Birliyi |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AİŞ** | Azərbaycan İnvestisiya Şirkəti |
| **AR** | Azərbaycan Respublikası |
| **ASC** | Açıq Səhmdar Cəmiyyət |
| **AZPROMO** | The Azerbaijan Export and İnvestment Promotion Foundation (Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu) |
| **BƏB** | Beynəlxalq Əmək Bölgüsü |
| **ETT** | Elmi-Texniki Tərəqqi |
| **XİF** | Xarici İqtisadi Fəaliyyət |
| **XTD** | Xarici Ticarət Dövriyyəsi |
| **SKMF** | Sahibkarlığa Kömək Milli Fondu |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **YGB** | Yük Gömrük Bəyannaməsi |

**MÜNDƏRİCAT**

**GİRİŞ**........................................................................................................8

**I FƏSİL.XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN FORMALAŞDIRILMASININ NƏZƏRİ ASPEKTLƏRİ**..........................................................................14

1.1. Xarici iqtisadi fəaliyyətin zəruriliyini şərtləndirən amillər və onun əsas formaları…………………………………………………………………………...14

1.2.İxrac potensialının ümumi xarakteristikası və ixracın ölkə iqtisadiyyatına mümkün təsirləri..........................................................................................................21

1.3. İxracın stimullaşdırılmasında tənzimləyici institutlar və bu sahədə formalaşmış xarici təcrübələr.............................................................................................27

**II FƏSİL.AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC POTENSİALINDAN İSTİFADƏNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ**.......................................33

2.1.İxrac əməliyyatlarının prosedur mərhələri və qaydaları ........................................................................................................................33

2.2.İxrac əmtəə-coğrafi strukturu və makroiqtisadi təhlili ........................................................................................................................38

2.3.İxrac stimullaşdırılmasının təşviq mexanizmləri və bu sahədə fəaliyyət göstərən dövlət orqanları sistemi ..........................................................................................43

**III FƏSİL.AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC POTENSİALINDAN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**..........................46

3.1.İxracın strukturunun təkmilləşdirilməsi istiqamətləri...........................................46

3.2.İxrac əməliyyatlarının prosedur mərhələrinin təkmilləşdirilməsi istiqamətləri..........................................................................................................51

3.3.İxrac təşviqləri sisteminin formalaşdırılmasında xarici təcrübədən istifadə istiqamətləri..........................................................................................................55

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**........................................................................................61

**ƏDƏBİYYAT SİYAHISI** ..........................................................................................63

# GİRİŞ

**Mövzunun aktuallığı:** Bazar münasibətlərinin inkişafı və milli iqtisadiyyatların dünya iqtisadi sisteminə qoşulmasında önəmli elementlərdən biri rəqabət qabiliyyətinin yüksəldilməsi yönündə ölkənin xarici iqtisadi əlaqələri, ixrac potensialıdır. Ölkəmizin xarici iqtisadi strategiyası qarşısında duran əsas məsələlər ixrac imkanlarının artırılması, təkcə ixracın deyil, həmçinin idxal əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, eləcə də dünya bazarının tələb və standartlarına görə rəqabətli məhsullar çıxarmaqdır. Bu məqsədlə xarici iqtisadi ələqələrin genişləndirilməsində aparılan iqtisadi siyasət və ixraca yönümlü müəssisələrə dövlət dəstəyi öz əhəmiyyətilə seçilir. İxrac sahələrinin dəstəklənməsi ölkəyə valyuta axınını təmin edir və bu da ölkəmiz üçün önəmlidir, çünki valyuta axını üçün alternativ mövcud deyil.

Ümumilikdə ixrac potensialı dedikdə, iqtisadi potensialın bir hissəsi olan, xalq təsərrüfatı, eləcə də onun ayrı-ayrı sahələrinin istehsal vasitələrindən tam olaraq istifadə olunması nəticəsində xarici bazar üçün istehlakçıların tələblərinə uyğun ölçüdə və keyfiyyət standartında fərqli kateqoriyalı məhsul, xidmət istehsalı ixracat bacarığı anlaşılır.

İxrac prosesinin olması üçün ilk növbədə mövcud məhsul və xidmətlərə tələbat olmalıdır. Eyni zamanda ixrac o zaman mənfəətlə həyata keçirilə bilər ki, həmin məhsulun qiyməti ölkə daxilində dünya bazarına nəzərən aşağı olsun və  daxili tələbat ödənsin. Beləliklə, ixrac potensialını təhlil edərkən məhsulun keyfiyyəti, beynəlxalq bazar standartlarına və qiymətlərinə uyğunluğu da nəzərə alınmalı və təhlil olunmalıdır.

İxrac potensialının mürəkkəb quruluşu və daxili məzmunu müxtəlif elementlərin təsiri ilə formalaşır. Belə ki,elmi-texniki tərəqqi,işçi qüvvəsi, onun təkmilləşdirilməsi, daha səmərəli və yeni faydalı qazıntıların aşkarlanması, istehsal fondlarının keyfiyyətinin yüksəldilməsi və istifadəsinin yaxşılaşdırılması, beynəlxalq iqtisadi əlaqələrin inkişaf etdiriməsi və s. ixrac potensialının təhlilində nəzərə alınmalı vacib amillərdir. Bu amillərin hər biri birbaşa ixrac potensialına təsir etməsə də, onu təşkil edən elementlərinin formalaşmasında mühüm təsirə malikdir.

İxrac potensialının təsir elementlərindən biri müəyyən keyfiyyət və kəmiyyət amillərilə şərtlənən əmək resurslarıdır ki, buraya ayrı-ayrı sənaye sahələrində çalışan işçilər, elmi kadrlar, ixrac prosesi, həmçinin  məhsulların beynəlxalq bazarda reallaşdırılması ilə əlaqəli idarəetmə və təşkilati işlərlə məşğul olan şəxslər aid edilir.

İxrac potensialının inkişafına təsir göstərən əsas amillərdən biri də ölkənin malik olduğu təbii resurslar və onların istifadə səviyyəsidir. Ölkədə təbii resurların mövcudluğu, mənimsənilməsi və səmərəli istifadəsi məhsuldar istehsal vasitələrinin inkişafını şərtləndirir ki, bu da öz növbəsində ixrac potensialının artırılmasına gətirib çıxarır. Lakin ölkənin təbii sərvətlərə malik olması heç də inkişaf etmiş iqtisadiyyatın mövcudluğu demək deyildir. Müəyyən inkişaf etmiş ölkələrə nəzər yetirsək, təbii sərvətlərin olmadığı şəraitdə iqtisadi inkişafını görmək mümkündür. Beləliklə belə bir qənaətə gəlmək olar ki, ölkənin malik olduğu təbii sərvətlər iqtisadiyyatı inkişafa və eyni zamanda iqtisadi geriləməyə gətirib çıxara bilər. Xüsusilə təbii resurslara malik ölkələrdə əsasən digər sanaye və xidmət sahələrinin inkişafında ləngimələr müşahidə olunur ki, bu da nəinki ixrac məhsullarının artırılmasına, hətta idxaldan asılılığa səbəb olur.

Müstəqillik dövrünə qədər ölkəmizdə ixrac potensialı siyasəti mövcud olmamışdır. Ölkədə istehsal olunan məhsullar dünya bazarına SSRİ tərəfindən çıxarılmış və belə bir şəraitdə əmək resurslarının, xammal və materialların, eləcə də  istehsal olunmuş son məhsul həcminin müəyyənləşdirilməsi mümkün olmamışdır.

Statistikaya nəzər yetirsək görmək olar ki, müstəqillik qazandığımız dövrdən etibarən 2015-ci ilə qədər ÜDM-nin həcmi hər ötən ilə nisbətən daha da artımla nəticələnmişdir. Təkcə 2009-cu ildə Qlobal Maliyyə Böhranı nəticəsində əvvəlki ilə nəzərən ÜDM aşağı düşmüşdür. 2015-ci il üçün beynəlxalq iqtisadiyyatda müşahidə olunan stabil vəziyyətin pozulması, xarici birjalarda baş verən dəyişimlər iqtisadi inkişafa heç də müsbət təsir etməmişdir. Belə ki, nəticədə neft və neft məhsullarının qiyməti xarici bazarda 2014-cü ildən etibarən enməyə başlamış, axır 7 ildə ilk dəfə 1 barrel neft $36  və daha aşağı qiymətə olmuşdur. Neft və neft məhsullarının qiymətində

müşahidə olunmuş bu enmə iqtisadiyyatı neftdən asılı olan digər neft ölkələri kimi Azərbaycan iqtisadiyyatına da mənfi təsir etmişdir. Əvvəlki dövrlərlə müqayisədə ÜDM istehsalına nəzər yetirdikdə, belə bir nəticəyə gəlmək olur ki, 2015-ci il üzrə ÜDM artım tempinə görə 1995-ci ildə qeydə alınan göstəricidən (1.3%) də aşağı səviyyə ilə müşahidə olunmuşdur. Buna səbəbi isə milli iqtisadiyyatının neft və neft məhsullarından asılılıq ilə izah etmək olar. Eləcə də qeyri-neft sektoruna yönəldilmiş investisiyaların ölkəyə daxil olan neft gəlirlərinə birbaşa şəkildə bağlı olmağı ilə əlaqədar olmuşdur.

Hazırda ölkə iqtisadiyyatı hazır məhsul istehsalında geniş imkanlara malik deyil. Səbəb isə ixrac oluna biləcək məhsulların beynəlxalq bazarda kifayət qədər olması, eyni zamanda aşağı qiymətlə təklif olunmasıdır. Həmçinin indiki halda sənaye sahələri arasında emal sənayesinin zəif olması da ixrac prosesinin inkişafına məfi təsir göstərir. Mövcud vəziyyətdə ixrac potensalından səmərəli istifadənin müəyyənləşdirilməsi, beynəlxalq standartlara uyğun keyfiyyətdə və aşağı qiymətlə məhsul istehsalı və bazara çıxarılması, ETT imkanlarından istifadənin artırılması, eyni zamanda düzgün ekoloji siyasət aparılması ölkə iqtisadiyyatına öz müsbət təsirini göstərər. Beynəlxalq bazar münasibətlərinin formalaşdığı indiki zamanda xarici iqtisadi strategiyanın mühüm yönləri maksimum səviyyədə ixrac imkanlarının artırılması, ixrac, və eyni zamanda idxal əməliyyatlarının struktur inkişafı, eləcə də beynəlxalq bazara yüksək keyfiyyətdə və istehlak tələblərinə uyğun rəqabətli məhsulların çıxarılması hesab olunmalıdır. Real sektorda idxalı əvəz edəcək və ixraca yönəldilmiş sahələrin davamlı inkişafı təmin olunmalı, bu sahənin və həyata keçirilən proseslərin hüquq mexanizminin qurulması mühüm əhəmiyyətə malikdir.

Beynəlxalq əlaqələrin genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiya, beynəlxalq iqtisadi münasibətlərin strategiyası, müxtəlif sahələrdə ixrac potensialının artırılması məsələləri və digər iqtisadi məsələlər ölkə alimləri tərəfindən müxtəlif dövrlərdə tədqiq olunmuşdur. Ə.C.Muradov, Z.Ə.Səməd-zadə, M.X.Həsənli, A.Ş.Şəkərəliyev, R.T.Həsənov, Ə.P.Babayev, Ə.İ.Bayramov və digər yerli alimlərin tədqiqat işlərində bu kimi məsələlər tədqiq olunmuşdur. Bundan başqa İ.Dyumilen,

V.Leontyev, A.Şişayev, L.Abalkin, A.Kiryev, A.Yevdokimov, V.Pokrovski, V.Buqlay, B.Olin, və s. kimi xarici ölkə alimlərinin elmi tədqiqatlarını qeyd etmək olar. Lakin hazırda və hər keçən dövrdə iqtisadi münasibətlərin yeni xarakter aldığını, bu sahədə proseslərin dinamik olaraq dəyişdiyini nəzərə alaraq qeyd olunan problemlərin aktuallığı, praktiki və nəzəri vacibliyi dissertasiya işinin yazılmasını şərtləndirmişdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Hazırki mövcud vəziyyətdə ölkə iqtisadiyyatının məhdud sahələrdən asılılığı ixrac potensialından istifadənin stimullaşdırılmasını şərtləndirir. Bu sahədə mövcud problemlərin təhlili, həlli yollarının araşdırılması ixracın artımına və ümumilikdə iqtisadiyyatın inkişafına müsbət yöndə təsir edə bilər.

**Tədqiqatın məqsəd və vəzifələri**: Dissertasiya tədqiqatının başlıca məqsədlərinə ölkənin ixrac əməliyyatlarının hazırki vəziyyətinə əsasən ixrac potensialının qiymətləndirilməsi, ixrac potensialının stimullaşdırılması istiqamətlərinin öyrənilməsi, ixrac potensialının formalaşdırılmasına və stimullaşdırılmasına yönəli dövlət siyasətinin əsas formalarının müəyyənləşdirilməsi, eləcə də ölkə iqtisadiyyatının dayanıqlı inkişafında xarici ticarət əlaqələrinin əhəmiyyətinin öyrənilməsi, ixracın stimullaşdırlmasında xarici təcrübənin təhlili və praktiki tətbiqi sahələrinin öyrənilməsi aiddir. Məqsədə çatmaq üçün isə aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

1. İxrac potensialının formalaşması və genişləndirilməsinin nəzəri konseptual məsələlərinin öyrənilməsi;
2. İxrac potensialının formalaşması və stimullaşdırılmasının xüsusiyyətlərinin təhlili və əsas istiqamətlərinin müəyyənləşdirilməsi;
3. Ölkənin ixrac potensialının stimullaşdırılmasında dövlət siyasətinin istiqamətləri və sahibkarlıq sahələrinə dövlət dəstəyinin araşdırılması;
4. İxrac potensialının formalaşdırılması istiqamətində qeyri-neft sahələrinin inkişaf istiqamətlərinin təhlili;
5. Qeyri-neft sektorunda beynəlxalq bazarda müqayisəli üstünlüyə malik olacaq sahə və məhsulların öyrənilməsi;

6. İxrac əməliyyatlarının mövcud vəziyyətininin təhlili və ixrac potensialının qiymətləndirilməsi;

7. Respublikanın ixrac potensialının stimullaşdırılmasında prioritet vəzifələrin müəyyən edilməsi və praktiki tətbiq sahələrinin öyrənilməsi və s.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiya tədqiqatının obyektini ixrac potensialının formalaşmasını təmin edən, məhsul ixrac edən, həmçinin dolayı yolla ixraca təsir göstərən sahələr, eyni zamanda real iqtisadi sektorun digər sahələri təşkil edir. Dissertasiya işinin predmetini ixrac əməliyyatlarının struktur mərhələləri və təkmilləşdirilməsi məsələləri, ixracın stimullaşdırılmasının təşviqi mexanizmi və bu sahədə fəaliyyət göstərən dövlət orqanlarının fəaliyyəti, ixrac potensialının stimullaşdırılması istiqamətləri və bu sahədə xarici təcrübə təşkil edir.

**Tədqiqat metodları:** Qarşıya qoyulmuş məsələnin həlli istiqamətində bir neçə metoddan istifadə olunmuşdur. İlk növbədə nəzəri metodların tətbiqi ilə ixrac, ixrac potensialı və ona təsir edən amillər təhlil olunmuşdur. Ümumilikdə isə müşahidə, qruplaşdırma, müqayisə, sistemli təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya tədqiqatının informasiya bazası dövlət orqanlarının maliyyə hesabatları, xüsusən mövzu ilə bağlı elmi tədqiqatlar və s. ədəbiyyatlardan ibarətdir. Dissertasiya işinin nəzəri-metodoloji bazasını alimlərin mövzu ilə əlaqədar tədqiqatları, əldə olunan nəticələr təşkil edir.

**Tədqiqatın mədudiyyətləri:** Son illər üzrə statistik məlumatların az olması və müəyyən hissələrdə uyğunsuzluğu tədqiqatın əsas məhdudiyyəti olmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Respublikamızda ixrac potensialından istifadənin stimullaşdırılmasının müasir problemləri araşdırılmış, ixracın diversifikasiyası, ixracda qeyri-neft sektoru məhsullarının payının artılırlması məsələləri təhlil olunmuşdur.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Mövzu ixrac və ixrac potensialı ilə bağlı mövzuların tədris olunduğu fənnlərdə köməkçi material kimi istifadə oluna bilər. Eyni zamanda dissertasiya materialı ixracın stimullaşdırılması istiqamətində tətbiq oluna, ixrac potensialının formalaşması və inkişafına səbəb olan

subyektlər, sahibkarlıq fəaliyyəti və beynəlxalq ticarət məsələrinə aid təhsil təhsil alan tələbələrə tədris oluna bilər.

# I FƏSİL. XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN FORMALAŞDIRILMASININ NƏZƏRİ ASPEKTLƏRİ

## 1.1. Xarici iqtisadi fəaliyyətin zəruriliyini şərtləndirən amillər və onun əsas formaları

Xarici iqtisadi əlaqələr deyərkən, hər hansı ölkənin beynəlxalq iqtisadi münasibətlər sferasında iştirakı etməsi ilə bağlı bütün növ fəaliyyət növlərinin məcmusunu başa düşmək olar.

Ölkələrin bir-biri ilə qarşılıqlı həyata keçirdikləri xarici ticarət, xarici kreditləşmə əməliyyatları, birlikdə elmi-tədqiqat layihələrinin reallaşdırılması, xarici ölkələrdən investorların cəlb olunması və s. bütövlükdə xarici iqtisadi münasibətlər sistemini təşkil etməkdədir. Xarici iqtisadi münasibətlər təsərrüfat fəaliyyətinin tərkib hissəsi olaraq firma və müəssisələrdə, ümumi olaraq isə ölkədə istehsal səmərəliliyinin və texniki səviyyəsinin artırılması, eləcə də yüksək keyfiyyətdə məhsul hazırlanmısına müsbət istiqamətdə təsir göstərir. Eləcə də qeyd etmək yerinə düşər ki, xarici iqtisadi əlaqələr sahibkarlıq sahəsində fəallığı artırır, bazar münasibətlərinin tənzimlənməsinə əlverişli şərait yaradır, ümumi olaraq iqtisadi struktura, eyni zamanda yeni texnika və texnologiyaların hazırlanması və istehsala cəlb olunmasında yeni ideyaların yaranmasına müsbət təsir göstərir.

Beynəlxalq ticarət həyata keçirilərkən belə bir fikir yarana bilər ki, hər hansı ölkənin mənfəəti digər ölkənin zərəri sayəsində yaranır. Lakin ümumilikdə praktiki olaraq bu belə deyil. Ölkələr qarşılıqlı ticarət əməliyyatları həyata keçirir və hər bir ölkə sonda mənfəət əldə olunmasında maraqlıdır. Təcrübə göstərir ki, xarici ticarətin davamlı və səmərəli inkişafının təmin olunmasına aşağıdakı amillər təsir göstərir:

a. dövlətlərarası münasibətlərdə sülhün qorunması, stabilləşdirilməsi;

b. istehsalın və kapitalın beynəlmiləlləşməsi;

c. iqtisadiyyatın diversifikasiyalaşdırılması, yeni texnika və texnologiyaların istehsala cəlb olunması;

d. beynəlxalq bazarda korporasiyaların, qurumların aktiv fəaliyyəti;

e. yüksək keyfiyyət standart və tələblərinə uyğun əmtəələrin ticarəti üçün ümumdünya bazarının inkişafı;

f. xarici ticarətin ÜTT çərçivəsində qəbul olunmuş xarici ticarət sazişləri ilə tənzimlənməsi və nəzarətin həyata keçirilməsi;

g. Beynəlxalq Valyuta Fondunun aktiv fəaliyyət mexanizminin genişləndirilməsi;

h. beynəlxalq ticarətin liberallaşdırılması, həmçinin ticarət əməliyyatlarının optimallaşdırılması üçün azad iqtisadi zonaların yaradılması və inkişafı;

i.regional maneələrin aradan qaldırılması, azad ticarət zonalarının inkişafına təsir edən maneələrin aradan qaldrılması;

j.müəyyən dövrdə müstəmləkə olan ölkələrin iqtisadi inkişafı və beynəlxalq bazara qoşulması.

Xarici iqtisadi fəaliyyət (XİF) Xarici iqtisadi fəaliyyət anlayışı ümumi olaraq elə iqtisadi münasibətlər sistemidir ki, hər hansı ölkə xarici iqtisadi əlaqələri sayəsində məhsul və xidmətləri dünya bazarına çıxarır. Belə münasibətlər sistemi beynəlxalq əmək bölgüsündə və sahibkarlıq strukturlarının fəaliyyəti üçün təşkilati və normativ-hüquqi şəraitin təşkil olunması ilə şərtlənir. XİF investisiya, ticarət, istehsal sahələrində mal və xidmətlərin, beynəlxalq mübadiləsi olaraq xarakterizə olunur.

Təsərrüfat münasibətləri sistemində dövlətin iştirakını ümumilikdə ölkənin iqtisadi fəaliyyəti və ayrı-ayrı firma və müəssisələrin fəaliyyəti istiqamətində geniş təhlil aparılmalıdır. Milli firma və müəssisələrin və ümumilikdə ölkənin XİF-nin müsbət nəticələnməsi ümumi olaraq dövlətin mövcud problemlərinin həll olunmasına əsaslanır. Belə ki:

- İxracın və ümumi olaraq iqtisadiyyatın difersifikasiyasını təmin edilməsi;

- İstehsal həcminin artırılmasına nail olunması;

- İstehsal prosesində iştirak edən yerli və xarici firma və müəssisələr üçün əlverişli rəqabət mühiti yaradılması;

- Səmərəli XİF üçün fəal inteqrasiya mühitinin və təhlükəsizliyin təmin olunmasına nail olunması və s.

Beləliklə, XİF-ə mürəkkəb bir sistem olaraq baxmaq lazımdır. Sistem olaraq təhlildə isə maliyyə, ticarət, investisiya xidmətləri və s. ayrı-ayrılıqda təhlil olunması daxildir. İqtisadi fəaliyyətdə mühüm yer tutan müəssisə və firmaların kompleks olaraq XİF qiymətləndirilməsi vacibdir. Belə ki, qiymətləndirmə üçün müəssisə və şirkətlərin fəaliyyətinin əsas nəticəsi olan sənədlər, hesabatlar seçilir və təhlil olunur, inkişaf dinamikası nəzərdən keçirilir. Aparılmış təhlil fəaliyyətin nə dərəcədə səmərəli olması barədə fikir formalaşdırmağa şərait yaradır. Ümumilikdə aşağıdakı məqsədlərə nail olmaq üçün balans maddələrinin şaquli və üfüqi təhlil prosesi aparılır:

- Mövcud və perspektiv olan maliyyə durumunun qiymətləndirilməsi,
- İnkişaf istiqamətlərinin və templərinin təyin olunması,
- Mövcud və cəl edilə biləcək vəsait mənbələrindən səmərəli istifadə istiqamətlərinin müəyyənləşdirilməsi
- Daxili və əsas da xarici bazar üçün rəqabətə davamlı fəaliyyətin proqnozlaşdırılması.

Təhlil prosesi aparılarkən qarşıdakı dövr üçün fəaliyyətə təsir edə biləcək amillər aşkarlanır. Gələcək dövr üçün fəaliyyətin qəlizləşməsini aşağıdakı əlamətlərlə müəyyənləşdirmək olar:

- Maliyyə göstəriciləri üzrə – mövcud passivlərin və aktivlərdən çox olması, əsas maliyyə göstəricilərinin əlverişsiz olmağı, fəaliyyətin müəyyən dövrlərdə mütəmadi zərərlə həyata keçirilməsi, borc müqavilələri şərtlərinin yerinə yetirilməsində çətinliklərin yaranması, borcların vaxtında qaytarılmamağı;
- Operativlik göstəriciləri üzrə – bazarda lisenziya və ya tədarükçülərin itirilməsi, uğurlu fəaliyyət həyata keçirən rəhbərlərin, əməkdaşların itirilməsi və əvəzetmənin uğursuz olmağı, bazarda keyfiyyət baxımından rəqiblərin məhsullarının inkişafı, gələcək fəaliyyətin uğurlu davamlılığının sadəcə bir layihə və ya müqavilədən asılılığı riskinin olması;

- Digər göstəricilər üzrə – qanunvericilik tələblərinə riayət olunmaması, qanunvericilikdə hər hansı dəişikliklərin olması və s.

XİF təhlil edilməsində əsas məqsəd odur ki, xarici ticarət əməliyyatlarında onların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinə təsiri müəyyən olunsun, əlavə olaraq inkişaf perspektivləri təyin olunsun. Aparılmış təhlil nəticələri investor və kreditorlar tərəfindən geniş istifadə oluna və fəaliyyətdə tətbiq oluna bilər. Mövcud vəziyyətdə XİF əksərən beynəlxalq sərgilərdə iştirak səviyyəsi, beynəlxalq ticarət qayda və standartları, xidmətlərdən istifadə səviyyəsi və s.ilə bağlıdır. Belə ki, xidmətlər dedikdə, nəqliyyat, turizm, təmir və tikinti, texniki xidmətlər, audit xidməti, reklam xidmətləri, lizinq, bank və sığorta və.s xidmətlərdən istifadə nəzərdə tutulur. Beynəlxalq ticarətdə iştirakda, idxal və ixrac, eləcə də əmtəə və mal mübadiləsi əməliyyatları üstünlük təşkil edir. XİF təhlili müəyyən vəzifələrin həll edilməsi üçün həyata keçirilir ki, bu vəzifələrə aşağıdakıları qeyd etmək olar:

- İdxalat həcminin və ümumilikdə istehlakda idxalın payının xüsusi çəkisinin müəyyən olunması;
- İxracat həcminin və ümumi istehsalda ixrac payının xüsusi çəkisinin müəyyən olunması;
- İdxal və ixrac əməliyyatlarında uğurlu fəaliyyət həyata keçirəcək daha çox fəal iştirakçıların aşkarlanması;
- İxrac və idxalda mühüm perspektivə malik məhsulların aşkarlanması;
- İdxal və ixracın əməliyyatlarının həcminə təsir edə biləcək amillərin qiymətləndirilməsi;
- Əmtəə və resursların qiymət səviyyəsinin təhlili, bazarda yeni fəaliyyətə başlayan subyektlər və s. səbəbindən yaranan dəyişkənliklərin idxal-ixrac əməliyyatlarına təsir səviyyəsini öyrənmək.

Ölkələrin beynəlxalq təsərüfat sisteminə inteqrasiya səviyyəsi yüksəldikcə XİF iqtisadi mühitin ən mühüm, ayrılmayan elementi olaraq əsas rol oynayır. Öncəki illərdə beynəlxalq iqtisadi münasibətlər sistemində daha az ixtisaslaşan beynəlxalq ticarət

qurumları fəaliyyət göstərirdisə, hazırki dövrdə daha çox ticarət və müəssisə və təşkilatlar bu cür fəaliyyətlə məşğuldur.

Beynəlxalq iqtisadi əlaqələr üçün əsas əsas təkan verici amillər qeyd olanlar hesab edilə bilər:

- Ölkələr  üzrə iqtisadi inkişaf səviyyəsinin qeyri-bərabər olması;
- Hər bir ölkə üçün xammal, əmək, hımçinin maliyyə resurslarının fərqli paylanması;
- ETT-nin fərqli inkişaf səviyyələrinin müşahidə olunması;
- Dünya ölkələri arasında mövcud siyasi və iqtisadi münasibətlərin vəziyyəti;
- Ölkənin yerləşdiyi təbii coğrafi şərait və s.

XİF-in prinsiplərini ümumi, xüsusi və milli olmaqla bir neçə qrupa bölə bilərik. XİF-in ümumi prinsiplərinə beynəlxalq işgüzar əməliyyatların hər bir iştirakçısının qoşulduğu bütün qəbul olunmuş qaydalar daxildir və sistemlilik, elmilik prinsiplərinə əsaslanır. XİF elmilik prinsipi əsasında obyektiv iqtisadi qanunlarla reallaşdırılır.

Sistemlilik prinsipi ilə XİF-in bütün tərkib elementləri qarşılıqlı əlaqədə mövcud olur və hər bir iştirakçının fəaliyyəti mənfəətlə yekunlaşır.

Qeyd olunmuş ümumi prinsiplərdən əlavə xüsusi prinsiplər də mövcuddur ki, bu prinsiplə müəyyən aktlar təyin olunur, təstiqlənir və bütün tərəfdaşların bu prinsiplərə əməl etməsi vacib sayılır. Xüsusi prinsiplərin bir çoxu regional səviyyədə tətbiq olunur.

Xarici iqtisadi fəaliyyət müxtəlif forma və növlərdə həyata keçirilə bilər ki, onları aşağıdakı cədvəldəki kimi qeyd etmək olar:

**Cədvəl 1: Xarici iqtisadi fəaliyyətin növləri və formaları**

| Xarici iqtisadi fəaliyyətin növləri | Xarici iqtisadi fəaliyyətin formaları |
|---|---|
| Xarici ticarət | İxrac<br>İdxal<br>Barter bağlaşmaları (sövdələşmələri)<br>Kompensasiyalı bağlaşmalar (sövdəşmələr) |
| Beynəlxalq investisiya əməkdaşlığı | İxrac<br>İdxal<br>Barter bağlaşmaları (sövdələşmələri)<br>Kompensasiyalı bağlaşmalar (sövdəşmələr) |
| Beynəlxalq istehsal-texniki əməkdaşlıq | Beynəlxalq istehsal kooperasiyası<br>Sənaye obyektlərinin birgə təçhizatı<br>Birgəistehsal proqramları<br>Podrat əməkdaşılığı |
| Beynəlxalq elmi-texniki əməkdaşlıq | Patent və lisenziyaların alqı-satqısı<br>Birgə elmi tədqiqatlar<br>Texniki kömək göstərilməsi<br>Heyətin təlimi<br>Françayzinq<br>Məsləhət injirinq xidmətin göstərilməsi |
| Beynəlxalq valyuta - maliyyə və kredit münasibətləri | Kredit və borcların verilməsi<br>Beynəlxalq hesablaşmaların həyata keçirilməsi<br>Valyutanın alqı-satqısı<br>Qiymətli kağızların alqı-satqısı |

**Mənbə:** Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, (http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=130)

Hər bir ölkə və xarici təsərrüfat subyektləri XİF reallaşdırarkən xalqın suverenliyi, sahibkarlıqda iqtisadi azadlıq, hüquqi cəhətdən bərabərlik, ali qanunvericilik bazasının olması, XİF-də iştirak edən hər bir subyektin maraqlarının müdafiə olunması, dempinqə yol verilməməsi mübadilə prosesində ekvivalentliliyin qorunması kimi əsas prinsiplərə əməl olunmalıdır.

XİF həyata keçirilməsində əsas subyektlərə aşağıdakılar aid olunur:

a. Dövlət;

b. Beynəlxal təşkilatlar və maliyyə mərkəzləri;

c. Milli müəssisələr;

d. Transmilli kompaniyalar və banklar;

e. Fiziki şəxslər.

Beynəlxalq ticarətin ölkələrin iqtisadi inkişafına daha çox müsbət təsir etdiyi təkzib edilməzdir. Müəyyən ölkələr üçün iqtisadi inkişafın hərəkətverici qüvvəsi sırf beynəlxalq ticarətdir. Ölkənin xarici ticarətinin iqtisadiyyatına müsbət yöndə təsiri dinamik mənfəət adlandırılır. Belə ki, beynəlxalq ticarətin ölkənin milli iqtisadiyyatı üçün vacibliyi aşağıdakı bəndlərdəki qruplarla qeyd etmək olar:

1. Xammal və resurs çatışmazlığının azaldılması və ya tamamilə aradan qaldırılması. İEOÖ-də inkişaf üçün vacib sayılan, amma ölkədə istehsal oluna bilməyən məhsul, xidmət və xammallar idxal edilir, beləliklə də istehlakçı tələbatı ödənir.

2. Ölkədaxili tələbatın ödənilməsindən daha çox istehsalın həyata keçirilməsini təmin etməsi. Xarici ticarət formalaşmayan iqtisadiyyata malik ölkələrdə daxili istehlakçı tələbatı daha az olmağı ilə bağlı ehtiyatlardan maksimum səviyyədə istifadə olunmaya bilər. Xarici ticarət inkişaf etmiş ölkələrdə isə bu və digər ehtiyatların daha əlverişli istifadə olunmasına zəmin yaranır. Həmçinin belə olduğu halda beynəlxalq bazara çıxış istehsalın həcminin də artımı, daha yeni təkmil texnologiyaların cəlb edilməsi, ölkədaxilində bazar həcminin genişlənməsinə şərait formalaşdırır.

3. Rəqabət. Xarici ticarətin genişlənməsi şəraitində ölkənin yerli müəssisə və firmaları ilə xarici müəssisələr arasında rəqabət mühiti yaranır. Bu isə öz növbəsində yerli istehsalda daha keyfiyyətli məhsul istehsalına, daha uğurlu sahibkarların bazara qoşulmasına gətirib çıxarır. Əks halda məhsuldarlıq aşağı düşür, əlavə xərclər yaranır.

4. Ölkədaxili bazar tələbinin inkişafının təmin olunması. İdxal olunan məhsullar tədricən ölkədaxili bazarlarda tələbatın artmasına və beləliklə də daxildə həmin tələbat məhsullarının istehsalına başlanmasına səbəb olur.

5. Mənfəət əldə olunması. Xarici ticarətdə iştirak edən ölkələr üçün istehsal xərclərinin yerli və beynəlxalq səviyyələrdə yaranan fərqlə əlavə mənfəət əldə edə bilir.

6. İqtisadi dinamizm. Beynəlxalq ticarət reallaşdırıldığı halda ölkələr qarşılıqlı münasibət yaradır, bəzi ölkələrdəki istehlakçılar başqa ölkələrdəki istehlakçıların davranışlarından, yaşam tərzindən məlumatlı olur və beləcə yeni tələbatlar yaranır, ən yüksək keyfiyyət səviyyəsində məhsul və xidmətlər tələb olunur. Bu sayədə iqtisadiyyatlarda sturktur dəyişiklikləri müşahidə olunmağa başlayır. Qeyd olunanların hər biri ölkə milli iqtisadiyyatına müsbət dinamizm verir, resursların daha optimal istifadə olunmasına, istehlakçı rifahının yüksəlməsinə şərait yaradır. Beynəlxalq ticarətin səmərəli təşkilinə nəqliyyat və telekommunikasiya texnologiyaları da öz təsirini göstərir. Bu təsir xammal resurslarının, əmtəə və xidmətlərin sürətli daşınması və keyfiyyətlə həyata keçirilməsilə nəticələnmişdir. Müsair dövrdə sadəcə bir əməliyyat günü və ya daha az müddət ərzində kapital məsafə fərqi olmadan ölkələr və regionlar arasında rahat bir formada mübadilə olunur.

## 1.2. İxrac potensialının ümumi xarakteristikası və ixracın ölkə iqtisadiyyatına mümkün təsirləri

Qloballaşma dövründə hər bir dövlət qarşısında duran vacib məsələlərdən biri xarici ticarət dövriyyəsinin artırılması, o cümlədən onun iqtisadi səmərəliliyinin yüksəldilməsidir. Bu isə öz növbəsində ETT-nin müasir nailiyyətlərindən daha səmərəli istifadə etməklə rəqabətqabiliyyətli mal və xidmətlərin istehsalını, beynəlxalq bazarlara sərbəst çıxışın təmin edilməsini və s. problemlərin sistemli şəkildə həllinin vacibliyini meydana çıxarır. Dünya bazarına inteqrasiya şəraitində ölkələrin XİF strategiyasının mühüm istiqamətləri ixrac imkanlarının genişləndirilməsi, ixrac-idxal əməliyyatları üzrə strukutur təkmilləşdirilməsinə nail olunması, o cümlədən xarici bazara beynəlxalq tələb və standartlara uyğun rəqabətqabiliyyətli əmtəə və xidmətlərin çıxarılması olmalıdır.

İxrac potensialı termini– hər hansı ölkədə iqtisadi imkanlarının tərkibi olaraq, milli təsərrüfat sistemi və onun ayrı-ayrı sahələrinin istehsal fondlarından bütöv olaraq istifadə olunduqda beynəlxalq bazarda istehlakçıların istıyinə uyğun ölçüdə və

keyfiyyət standartında müəyyən xidmət və məhsul istehsal olunması, ixracat həyata keçirmək qabiliyyətidir. İxrac prosesinin olması üçün birinci növbədə ixrac ediləcək məhsul və xidmətlərə tələbat formalaşmaldır. Hər hansı ölkənin ixrac potensialı təhlil olunarkən, keyfiyyət, tələb və standartlara uyğunluq xüsusi nəzərə alınmalıdır. Ümumilikdə müəyyən məhsulun qiyməti eyni məhsulun xarici bazarda satılan qiymətindən aşağıdırsa demək olar ki, ixrac potesialına malikdir. Ümumi dedikdə, hər hansı məhsulun ixrac potensialına malik olmasını dəyərləndirmək üçün həmin məhsulun qiymətinin xarici bazardakı qiymətlərlə müqayisəsini aparmaq və ixracatın nə dərəcədə mənfəətli nəticələnəcəyini təhlil etmək olar.

İxrac potensialı məzmun və quruluş baxımdan bir çox müxtəlif elementlərin təsiri ilə dəyişir və formalaşır. ETT, əsas və köməkçi fondlardan istifadə səviyyəsinin yüksəldilməsi, kadrların inkişafı, yeni, eyni zamanda səmərəli xammal mənbələrinin tapılması, istehsala cəlb olunmuş vəsaitlərin keyfiyyətinin yaxşılaşdırılması, beynəlxalq iqtisadi inteqrasiyanın yüksək inkişaf dərəcəsi və s. bu elementlərə aiddir. Qeyd olunan elementlər hamısı ayrı-ayrılıqda fərqli səviyyədə və formada təsir göstərir. Və bu elementlərin heç də hamısı birbaşa olaraq ixrac potensialına təsir etmir, müəyyən hissəsi əvvəl tərkib hissəsini təşkil edən sahələrə, və digər elementlərə təsir göstərir. Yekun olaraq isə tərkib hissələrinin formalaşması ilə ixrac potensialı formalaşır, və təkmilləşir.

İxrac potensialının mövcudluğunun və inkişaf səviyyəsinin təyin olunması üçün vacib elementlərdən biri də məhz həmin ölkənin təbii ehtiyatlarının olması və istifadə səviyyəsidir. Ölkədə təbii ehtiyatların çoxluğu və istehsala cəlb olunma səviyyəsi məhsuldar qüvvələrin, əsasən də, maddi istehsal vasitələrinin və beləliklə də ixrac potensialının inkişafına şərait yaradır. Bu səbəblə belə nəticəyə gəlmək olar ki, ölkənin malik olduğu ixrac imkanları mövcud və hələ də istehsala cəlb edilməmiş təbii ehtiyatlardan, eləcə də yerləşdiyi təbii şəraitdən asılıdır. Nəticə olaraq ölkənin malik olduğu ixrac potensialı təməlini istehsala cəlb olunmuş və hələ də istifdə olunmamış bütün təbii ehtiyatlar təşkil edir deyə bilərik. Əmək ehtiyatlarını – elmi kadrlar, istehsal

prosesinin müxtəlif sahələrində işləyənlər, o cümlədən əmtəə ixracı ilə bağlı işlərdə çalışanları da ayrıca ixrac potensialının təsir elementləri olaraq təhlil etmək lazımdır. Əmək resurslarının keyfiyyət və kəmiyyət baxımından dəyişməsi, yüksəldilməsi, elmi-texniki tərəqqidə sürətli inkişaf, kadrlardan istifadə səviyyəsinin yüksəldilməsi və beləliklə də ixrac imkanlarının inkişafına gətirib çıxarır. Qeyd olunan amillər səbəbindən əmək ehtiyatlarının istifadə səviyyəsinin səmərəliliyinin artırılmasına, kadrların ixtisas artımına və s. məsələlərə xüsusi diqqət yetirmək vacibdir.

Ölkənin ixrac imkanlarının inkişafı, onun əsasını təşkil edən elementlər barədə klassik və eləcə də müasir xarici ticarət nəzəriyyələrində yer ayrılmışdır. Klassik nəzəriyyələrə görə əgər bir ölkə müəyyən məhsullar istehsalı üzrə üstünlüyə malikdirsə, həmin məhsulların istehsalı və ixracı ilə ixtisaslaşmalıdır. Amma ixrac imkanlarının inkişaf səviyyəsini yalnız istehsal prosesinə cəlb olunan elementlərin sayının çoxaldılması ilə məhdudlaşdırmaq olmaz. Eyni zamanda ETT-nin inkişaf səviyyəsi, xarici ticarət münasibətlərinin inkişaf səviyyəsi, beynəlxalq əmək bölgüsünün dərinləşməsi ilə yarana biləcək müsbət nəticələrə də diqqət edilməlidir. Müasir dövrdə ETT-nin yüksək inkişafı ümumi olaraq ölkədə ixrac imkanlarının yüksəlməsinə və beynəlxalq bazar üçün rəqabətqabiliyyətli əmtəə və xidmət təklifinə şərait yaradır. ETT imkanlarından istifadə edən və texnoloji yeniliklərdə operativlik göstərən ölkələrdə hər zaman digər ölkələrə nisbətən istehsal olunmuş məhsullarda fərqlər müşahidə olunur və müqayisəli üstünlük əldə edilir. Belə olduğu halda üstünlüyə malik ölkə həmin əmtəənin istehsal və satışında inhisarçıya çevrilir, beləliklə digər sahələr üçün də ixrac imkanlarının artırılmasına şərait yaranır.

Təcrübədən məlumdur ki, tarix boyu zəif inkişafa malik ölkələr hər zaman xammal ixracı ilə kifayətlənmişdir. Lakin İEÖ-də xammala tələbat səviyyəsinin çox olmaması, proteksionizm siyasəti, istehsalda xammala daha çox qənaət olunmasına yönəlmiş texnika və texnologiyaların tətbiq edilməsi, əlavə sintetik əvəzedici məhsullardan istifadə olunması və s. digər məsələlərlə bağlı olaraq, yalnız xammal sayəsində ixrac imkanlarını artırmaq çətindir və hətta demək olar ki, mümkünsüzdür.

Əsasən də, son zamanlar müqayisəli üstünlüyə malik olmağın daha çox elm və texnologiya tutumlu istehsal sahələrinə yönəlik dəyişdiyinə diqqət yetirsək ixracatın məhsul üzrə tərkibində emal sənayesi məhsullarının, xüsusi olaraq da maliyyə və elm tutumlu əmtəələrin xüsusi çəkisinin artırılması məqsədyönlü, o cümlədən potensial qəbul edilməkdədir. Ölkəmizdə reallaşdırılan beynəlxalq ticarət istiqamətlərində iqtisadi durumun təsiri, ölkə iqtisadiyyatının mühüm yüksəlmə amilləri, perspektiv hesab edilən sektorlarda istehsal olunmuş əmtəələrə beynəlxalq bazarda istehlakçıların istəkləri diqqətdə saxlanaraq ixrac imkanlarının optimal inkişafı istiqamətində proqramlar hazırlanır, reallaşdırılır. İxrac potensialının inkişaf və formalaşma xüsusiyyətlərini araşdırmazdan öncə iqtisadi məzmununa baxılmalı və təhlil olunmalıdır. Belə ki, ölkəmizdə mövcud bütün növ təbii resurslar, xidmətlər, patent və lisenziyalar, yeni texnoloji qurğular, yaxşı səviyyədə ixtisaslaşmış kadr ehtiyatı və s. ixrac potensialında birləşir.

Azərbaycan yaxın Şərq ölkələri sırasında iqtisadi vəziyyətinin yaxşılaşmasında və ümumilikdə formalaşmasında neft və neft məhsulları, kimya sənayesi, aqrar sənaye məhsulları, eləcə də elm, texnika və texnologiya imkanlarında iqtisadi potensialın həcminə görə əhəmiyyətli yerə malikdir. Bildiyimiz kimi, ölkəmiz müstəqilliyinin ilk illərindən sadəcə xammal ixracı ilə, sonrakı dövrlərdə isə yarı emal olunmuş məhsulların ixracı ilə kifayətlənmişdir. Daha sonrakı və indiki dönəmlərdə isə ixrac məhsulları arasında daha çox hazır məhsulların payının artırılmasına diqqət yetirilir. İxrac potensialının və ümumi iqtisadi təhlillər göstərir ki, ixracın bu formada olması daha çox az inkişaf etmiş və inkişafda olan ölkələrə xasdır. Belə ki, statistik məlumatlar göstərir ki, Latın Amerikası və Afrikadakı İEOÖ üçün ixracdan əldə olunan gəlirin 70%-i sadəcə xammal ixracının hesabına formalaşır. İEOÖ-in belə inkişaf modelinə xas göstəricilər ölkəmizdə də az fərqlərlə müşahidə olunur. Respublikamızda ixrac əldə olunmuş qazancın 80%-ə qədərini ixrac olunmuş neft və neft məhsulları hesabına formalaşır. Belə bir ümumi fikir yaranıb ki, İEOÖ İEÖ üçün xammal mənbəyidir və həmin ölkələr beynəlxalq bazarda bu əlamətlə müəyyən göstəricilərə

əsasəndəyərləndirilir. İxrac potensialının ixrac imkanlarından istifadə səviyyəsinin optimal və səmərəli formalarının təyin olunması, ETT-nin inkişafına nail olmaq baxımından şərtləndirilməsi daha dəqiq qiymətləndirmə və təhlil tələb olunur. Kəmiyyət baxımından qiymətləndirmə inkişaf səviyyəsindən asılı olmayaraq hər bir ölkədə aparılır. Bu səbəblə ölkənin ixrac imkanlarının ölçülməsi təcrübəsində qeyd olunan elementlər qiymətləndirmənin vacib göstəricisi olaraq qəbul olunur. Milli iqtisadiyyatının inkişafında beynəlxalq ticarətin əhəmiyyətini təhlil etməkdən ötrü müəyyən fərqli meyarlardan istifadə edilir. Bu məqsədlə ölkənin XTD ilə ölkədaxili istehsalın nisbi müqayisə mehayrları təyin olunur. Hazırki dövrdə bu göstərici sadə metodla aşağıdakı formada hesablanır:

$$\text{XTDk} = \frac{\text{XTD}}{\text{ÜDM}} \times 100 \quad (1.1)$$

Belə ki, burada $XTD_k$ – ölkənin xarici ticarət dövriyyəsi kvotası, XTD – xarici ticarət dövriyyəsi, ÜDM – ölkənin ümumi daxili məhsulu əks etdirir.

Lakin bu meyarlar ölkənin beynəlxalq iqtisadi əlaqələrə cəlb olunması haqqında tam dəqiq məlumat əldə olunmasına imkan vermir. Bu səbəbdən iqtisadi ədəbiyyatlarda ixrac-idxal kvotaları üzrə göstəricilərdən istifadə olunur ki, onlar da iqtisadi şəffaflığın miqdar indikatorları olaraq qəbul olunmuşdur. Bu göstəricilərin təhlili hər bir ölkə üzrə iqtisadiyyatın büynəlxalq bazarla inteqrasiyası barədə fikir formalaşdırmaya şərait yaradır. İdxal və ixrac kvotaları xüsusi olaraq idxalat-ixracatla ümumdaxili məhsul arasında qarşılıqlı əlaqənin ifadəsi olaraq müəyyən olunur. Belə ki, idxal kvotası

$$\text{İDk} = \frac{\text{İD}}{\text{ÜDM}} \times 100\% \quad (1.2)$$

formulna əsasən ilə, ixracda kvota isə

$$\text{İXk} = \frac{\text{İX}}{\text{ÜDM}} \times 100\% \quad (1.3)$$

formulu ilə hesablanır.

Formulda $İD_k$ – ölkənin idxal kvotasını, İD – idxalatı, $İX_k$ – ixracda kvota, İX isə– ixracatı özündə əks etdirir.

Kvota miqdarı ilə ölkənin xarici bazarda payının çox ya da az asılılığını qiymətləndirmək üçün təhlil olunur. Belə bir qənaətə gəlmək olar ki, hər hansı ölkə ərazi baxımından kiçikdirsə inkişaf etmiş olsa da xarici bazardan asılı olur. Bu fikri belə izah etmək olar ki, belə ölkələr beynəlxalq bazara istehlakçıların tələbatına uyğun iri həcmli ixrac məhsulları çıxara bilmir. Bu xüsusiyətli ölkələr üçün xarakterikdir ki, ixrac olunan məhsul həcmi təxmini olaraq ümumdaxili məhsul həcminin yarısına bərabər olur. Böyük inkişaf etmiş ölkələrdə iqtisadiyyat daha kompleks xarakterə malikdir, bu səbəbdən həmin ölkələr beynəəlxalq ticarətdən o qədər də çox asılı olmur. Belə ölkələr üçün demək olar ki, iqtisadiyyatın heç də hər bir sahəsi beynəlxalq bazardan eyni asılılığa malikdir ki, bu da ixracyönümlü sahələrdə daha çox müşahidə olunur. Misal olaraq ABŞ-ı qeyd etmək olar, burada ən çox ixrac kvotası əsasən aqrar sektorda – xüsusilə də yağ toxumu, buğda, düyü, pambıq və s. digər sahələrdə müşahidə olunur. Qloballaşma dövründə ixrac prosesinin səmərəliliyini müəyyənləşdirən amil onun intellektləşdirilməsidir. Belə ki, bu amil ticarət münasibətlərində xammal, materialların xüsusi payının aşağı düşməsi, və yüksək inkişaf texnologiyalı əmtəələrin, patent və lisenziyaların satışının xüsusi çəkisinin isə çöxalması ilə izah edilə bilər. İxracın davaml; olaraq səmərəliliyi artırmaq üçün əsas tələblərdən biri beynəlxalq ticarətin liberallaşdırılmasıdır. Bu isə ilkin olaraq mübadilədə maneçilik yaradan qeyri-tarif dərəcələri, eyni zamanda kəmiyyət məhdudiyyətlərinin həll olunmasını tələb edir. Bu istiqamətdə vacib məqamlarından biri də ixracın stimullaşdırılmasında investisiya cəlbinin artırılmasıdır. Optimal seçim olaraq investisiyalar əsasən daha çox yeni texnika və texnologiyaların yaradılmasına, texnoloji baxımdan ixrac potensialı yüksək sahələrə yönəldilir. Tələbata uyğun yüksək keyfiyyətdə yeni məhsulların yaradılması və xarici bazarda yüksək qiymətlə satılması ilə ixracın mənfəətli reallaşdırılması təbiidir ki, ölkə iqtisadiyyatına effektiv təsir göstərir. Hər bir ölkənin ixrac potensialının artırılması və səmərəli inkişafı ilə bərabər idxal siyasətinə də xüsusi diqqət yetirilməlidir. Səbəbi isə ixracın artırılmasında idxalı əvəz edən məhsullar istehsalınnın vacibliyi ilə izah edilə bilər. Bütövlükdə ixracın səviyyəsi beynəlxalq bazarda rəqabətin

şəraitini diqqətdə saxlmaqla istehsal olunan əmtəələrin, eləcə də ümumi istehsal keyfiyyətində texniki-iqtisadi göstəricilərə uyğunluğu, o cümlədən ölkənin ayrı-ayrı regionlarında inkişaf səviyyəsinin artmasını və ölkədaxili müəssisə və firmaların texniki cəhətdən maksimum səmərəli təchiz olunmasını sürətləndirməlidir.

### 1.3. İxracın stimullaşdırılmasında tənzimləyici institutlar və bu sahədə formalaşmış xarici təcrübələr

Respublikamız təbii ehtiyatlarla zəngin və əlverişli təbii iqlimi olan bir ərazidə yerləşir. Bu mühit iqtisadiyyatda yeni istehsal sahələrinin yaranmasına, eyni zamanda mövcud istehsal sahələrinin inkişafına şərait yaradır. Hazırda mövcud mühüm problemlərdən biri iqtisadiyyatın müəyyən sahələrdən asılılığı, ixracın strukturununda xammalın üstünlüyüdür. Halbuki ixrac olunan xammalın hazır məhsula çevrilməsi sayəsində idxalın əvəzlənməsi və eləcə də yüksək keyfiyyətli əmtəə ixrac olunması üçün ölkəmizdə əlverişli şərait mövcuddur. Bu problemin daha dərindən təhlil olunması, öncəki illərin təcrübəsi və həmçinin xarici ölkələrin təcrübəsindən yararlanaraq davamlı iqtisadi inkişafa nail olmaq mümkündür.

İxracın diversifikasiyası, stimullaşdırılması və bunun sayəsində ümumilikdə ölkə iqtisadiyyatının inkişafına nail olmaq istiqamətində bir sıra addımlar atılmış, yeni layihələr tərtib olunub, tədbirlər planı hazırlanıb və eləcə də yeni institutlar yaradılmışdır.

Respublikamızda ixracın stimullaşdırılması və qeyri-neft sahəsinin inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərən digər aşağıdakı institutları qeyd etmək olar:

- Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu (SKMF) – 1992-ci ildən kiçik və orta sahibkarlığa dəstək məqsədilə yaradılsa da maliyyə çatışmazzlığı səbəbindən 2002-ci ildən etibarən aktiv fəaliyyət göstərməyə başlayıb. Fondun yeni əsasnaməsi 27 avqust 2002-ci ildə Prezidentin Fərmanı ilə təsdiqlənmişdir. Belə ki, sahibkarlığın, əsasən də kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, işğüzarlığın təşviqi, sahibkarlara maliyyə dəstəyinin təmin olunması fondun əsas

məqsədlərindəndir. Fondun funksiyalarına iqtisadiyyatın prioritet sahələrinə aid sahibkarlıq subyektləri üçün investisiya layihələrini maliyyələşdirməklə yanaşı sabkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətini inkişaf etdirmələrinə, ölkəmizdə sahibkarlığın müasir bazar iqtisadiyyatına uyğun dəstək olmaq və s. Aid etmək olar. Hazırki dövrdə SKMF-in əsas maliyyələşmə istiqamətlərinə aiddir:

1) İdxalı əvəz edə biləcək və ixrac olunacaq kənd təsərrüfatı məhsullarının, əsasən də ətlik və südlük cins iribuynuzlu heyvandarlıq sahələrinin, quşçuluq təsərrüfatlarının yeni texnologiyalarla kompleks şəkildə yaradılması, bağçılıq, tərəvəzçilik və toxumçuluq sahələrin inşikafı sayəsində intensiv istehsalın həyata keçirilməsi;

2) Yeni texnologiyalarla kənd təsərrüfatı məhsullarının uzun müddət saxlana bilməsi üçün soyuducu anbar kompleksinin hazırlanması;

3) Sənaye sahələrində rəqabətədavamlı və ixraca yönəlik məhsul istehsalı ilə məşğul sahələrin inkişaf etdirilməsi - əsasən də mineral suların yerindəcə qablaşdırılması üçün həmin sahələrdə müasir texnologiyaların tətbiqi, eləcə də tərəvəz və meyvələrin emal olunduğu müəssisələrdə yeni texnologiyaların tətbiq olunması;

4) Taxil məhsulları, xüsusən də çörək istehsal olunan müəssisələrdə müasir şərtlərə uyğun şəraitin yaradılması;

5) Yüngül sənaye sahələrində müasir dövrün tələblərinə uyğun texnologiyaların tətbiqilə geniş çeşidli məhsul istehsalı;

6) Kiçik sahibkarlıq sahələrinə maliyyə dəstəyi.

- İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) – İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə 2003-cü ildə qeyri-neft sahələrinə xarici investisiyaların cəlb olunması və eləcə də qeyri-neft sektorunda istehsal olunmuş məhsulların ixracını stimullaşdırmaq məqsədilə yaradılmışdır. Fondun əsas məqsədlərinə iqtisadiyyatın sahə və eləcə də regionlar üzrə tarazlı inkişafını təmin etmək, əsasən də regionlar üzrə yoxsulluq səviyyəsinin aşağı salınması strategiyası ilə yeni iş yerlərinin yaradılması və investisiya cəlb olunması üçün ixracın stimullaşdırılması məsələləri aiddir.

AZPROMO-nun bir fond olaraq prioritet fəaliyyət yönlərinə aşağıdakı istiqamətlər aiddir:

a. Ölkədə invesisiya siyasətinin inkişafı;

b. Yerli və əcnəbi investorlar üçün müxtəlif xidmətlərin göstərilməsi;

c. Müxtəlif sahələr üzrə marketinq siyasətinin həyata keçirilməsi;

d. Cəlb olunan investisiya və ixracatla bağlı bazanın hazırlanması;

e. Bisnes mühitinin yaradılması üçün regional ixrac imkanlarının təhlili;

f. İxrac potensialına malik şirkətlərə müxtəlif xidmətlərin həyata keçirilməsi;

g. İqtisadiyyatın müxtəlif sahələrində bazar araşdırmalarının aparılması;

h. "Made in Azerbaijan" brendinin beynəlxalq səviyyədə tanıdılmasına nail olmaq.

AZPROMO tərkibində 2 əsas departament olaraq stimullaşdırmaya dəstək göstərir: İxracın Təşviqi Departamenti, İnvestisiya Təşviqi Departamenti.

İxracın Təşviqi Departamenti – ölkədə mövcud olan və potensiala malik ixracatçı müəssisələrə dəstək göstərilməsi, ümumi olaraq qeyri-neft sektoru üzrə məhsul ixracını stimullaşdırmaq üçün yaradılmışdır. Struktur olaraq qeyd olunan xidmətlər üzrə fəaliyyəti nəzərdə tutulmuşdur:

a. Ticarət məməliyyatları haqqında məlumat bazasının yaradılmasının təmin olunması;

b. Standartlaşdırma və sertifikatlaşdırma prosesləri haqqında məlumatların təmini

c. Hüquqi məsləhət xidmətlərinin göstərilməsi;

d. Marketinq xidmətlərinin həyata keçirilməsinin təmini.

İnvestisiya Təşviqi Departamenti – ölkədə fəaliyyət həyata keçirən xarici investorlar və eləcə də layihələrini reallaşdırmaq üçün investor cəlbinə ehtiyac olan milli şirkətlərə dəstək olunması, iqtisadiyyatın qeyri-neft sahələrinin stimullaşdırılması

məqsədi ilə yaradılmışdır. Struktur olaraq aşağıdakı fəaliyyət istiqamətlərində xidmətlərin təşkil olunmasına yönəldilmişdir:

a. Sahələr üzrə institutsional dəstəyin həyata keçirilməsi;

b. Görüşlərin təşkil edilməsi;

c. Uyğun sahələr üzrə məsləht xidmətlərinin göstərilməsi.

- Azərbaycan İnvesisiya Şirkəti (AİŞ) ASC – Ölkə Prezidentinin 30 mart 2006-cı il tarixli 1395 nömrəli "İnvestisiya Fəaliyyətinin Təşviqi üzrə Əlavə Tədbirlər haqqında" Sərəncamı ilə yaradılıb. Bu şirkətin yaradılmağında əsas məqsəd mövcud fəaliyyətdə göstərən, eləcə də yeni yaranan kommersiya müəssisələri üçün xarici və yerli invesorların cəlb olunması, həmçinin şirkət olaraq daxili vəsaiti hesabına müddətli investisiya qoyuluşları həyata keçirməklə ölkə iqtisadiyyatının qeyri-neft sahələrinin inkişaf etdirilməsinə dəstək göstərməkdir. Şirkət müəyyən investisiya prinsipləri əsasında fəaliyyət göstərir:

a. Respublika daxilində məhsuldar fəaliyyət həyata keçirən müəssisə və firmalara investisiya qoyuluşları etmək və ya başqa investorların dəstəyi ilə yeni müəssisələrin təsis edilməsi;

b. Prioritet olaraq ölkə iqtisadiyyatının qeyri-neft sahələrin invesisiya yatırımlar edilməsi;

c. İnvestorların hüquqlarının müdafiəsi və korporativ idarəetmə prinsiplərinin tətbiq olunması;

d. Tərtib olunan layihələrdə minoritar pay əldə olunması.

AİŞ üçün əsas investisiya yatırımlarında prioritet sahələr aşağıdakılar hesab olunur:

a. Alternativ enerji;

b. İnformasiya texnologiyaları və telekommunikasiyalar;

c. Kənd təsərrüfatı sahələri;

d. Logistika və daşınma xidmətləri;

e. Ağır sənaye;

f. Turizm;

g. Qida və qablaşdırma sənayesi.

Azərbaycan İnvesisiya Şirkəti ASC dövlət investisiya fondu kimi ölkə bazarına daxil olmağı düşünənlər üçün ən səmərəli invesisiya ortağı sayıla bilər. Belə ki AİŞ həm də "fondlar fondu" olaraq da fəalyyət həyata keçirir.

İxracın stimullaşdırılması istiqamətində xarici təcrübələrə nəzər yetirsək, burada bir neçə ölkəni nümunə olaraq qeyd etmək olar. Türkiyədə ixrac proseslərinin təşviqi üçün müəyyən dəstək proqramları reallaşdırılır. Ölkənin İqtisadiyyat Nazirliyi və İnkişaf Nazirliyi, həmçinin İxracatçılar Məclisi tərəfindən həyata keçirilən "Türkiyə İxracat Strategiyası 2023" layihəsinə görə, prioritet ticarət bazarlarına yönəlik proqramlar reallaşdırılması, müəssisə və təşkilatların sərgi və yarmarkalarda iştirak etməsinə şərait yaradılması, beynəlxalq bazarda fəaliyyətə qoşulmasına yardım edilməsi qarşıya qoyulmuşdur. O cümlədən dizaynca daha yeni və fərqli məhsul ixracı, İstanbulda müxtəlif təyinatlı sərgilərin təşkili, ekoloji şətaitin qorunması üçün standartlara riayət olunmasına nəzarət, eko-etiketləmə üzrə maarifləndirici layihələrin təşkili diqqətdə saxlanılmaqdadır. Eləcə də, Türkiyədə İqtisadiyyat Nazirliyi milli brendləşmənin möhkəmləndirilməsi və təşviq edilməsi istiqamətində aşağıdakı proqramlar hazırlanıb reallaşdırılır:

- Brendləşmə və Turquality Dəstəyi - Markalaşma və Turquality Desteği;
- Ölkəxarici Bölmə, Brend və Reklam Dəstəyi - Yurtdışı Birim, Marka və Tanıtım Desteği;
- Sərgilərdə iştirak Dəstəyi - Fuar Katılım Desteği.

Hazırki dövrdə Yaponiya ən tanınmış brendlərini hazırlayıb ixrac edir ki, bu brendlərə Toyota, Honda, Canon, Sony, Nissan, Panasonic, Lexus, Toshiba brendləri daxildir.

Yaponiyanda ixrac potensialının stimullaşdırılması, beynəlxalq mühitdə imicinin daha da qaldırılması, eləcə də yerli məhsul brendlərin stimullaşdırılması prosesinə bir

çox nazirlik və qurumlar, nümayəndəliklər, o cümlədən dövlətin dəstəyi ilə maliyyələşməkdə olan QHT cəlb olunmuşlar.

Yaponiyanın İqtisadiyyat, Əmək və Sənaye Nazirliyi 2004-cü ildən "Yaponiya brendi" yardım proqramının həyata keçirilməsinə başlamışdır.

Ölkəmizdə qeyri-neft sektoru üçün ixrac imkanlarının genişləndirilməsi və bu işin inkişaf etdirilməsi üçün dövlət tərəfindən tədbirlərin görülməsinə başlanılması zəruridir. Təcrübə göstərir ki, hər bir ölkədə ixracın hökumət tərəfindən dəstəklənməsi üzrə maliyyə mexanizmi fəaliyyət göstərir ki, bu da ixracın stimullaşdırılması uzrə milli sistemin qurulması üçün çox vacibdir. İxracın maliyyə dəstəyi yerli müəssisə və şirkətlərin dünya bazarında yüksək rəqabət qabiliyyətliliyinin təmin edilməsi üzrə dövlətin həyata keçirdiyi siyasətin vacib istiqamətlərindən biridir. Bu da öz növbəsində müəssisələrə rəqabət mübarizəsində uğur qazanmağa, yeni və mənfəətli sifarişlərin əldə olunmasına imkan yaradır.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC POTENSİALINDAN İSTİFADƏNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. İxrac əməliyyatlarının prosedur mərhələri və qaydaları

Xarici ticarət prosesi idxal və ixrac əməliyyatlarının formalaşması ilə reallaşır ki, bu halda xarici ticarət balansının müsbət qiyməti ixracın həcminin sıfırdan böyük olduğunun, əks halda məfi qiyməti isə ixracın həminin sıfırdan kiçik olmasının göstəricisidir. Həmçinin əgər idxal və ixrac həcmi bərabərləşərsə, bu halda balanslaşdırılmış ticarət saldosu müşahidə olunur.

Azərbaycan Respublikasında 24 iyun 1997-ci il tarixində İdxal-ixrac Əməliyyatlarının Tənzimlənməsi Qaydaları Respublika Prezidenti tərəfindən 609 saylı Fərmanla təsdiq olunmuşdur.

Gömrük Məcəlləsinin 3-cü maddəsinə əsasən Respublikanın gömrük ərazisinə ölkənin quru ərazisi, daxili suları, Xəzər dənizinin ölkəmizə aid hissəsi və onların üzərindəki hava məkanı daxildir. Bu məcəlləyə əsasən Azərbaycan Respublikası ərazisində sərbəst zonalar yaradıla bilər. Eyni zamanda bu maddədə qeyd edilir ki, gömrük ərazisinin sərhədləri, o cümlədən sərbəst təyin olunmuş zonaların perimetrləri gömrük sərhədidir. Sərbəst zonaların perimetrlərini çıxmaqla, gömrük hüdudları respublikamızın dövlət sərhədi ilə eynidir.

Hal-hazırda qəbul olunmuş qanunvericiliyə əsasən mal və nəqliyyat vasitələri elan edildiyi vaxtdan etibarən artıq gömrük rejimində yerləşdirilənə qədər olan dövrdə gömrük nəzarəti altına alınır. Respublika Prezidentinin 11 noyabr 2008-ci il tarixli "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən mal və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 12 saylı Fərmanı ilə dövlət sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin yoxlanması aparılarkən süni maneələrin aradan götürülməsi, idxal və ixrac əməliyyatlaır üzrə prosesin müasir starndart və tələblərə uyğun şəkildə reallaşdırılması məqsədilə əlverişli şəraitin yaradılması üçün dövlət sərhədinin gömrük

məntəqələrindən keçirilən mal və nəqliyyatın yoxlanılmasında "bir pəncərə" prinsipi 1 yanvar 2009-cu ildən etibarən tətbiq edilməyə başlanılmışdır.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin birinci maddəsinə görə, gömrük nəzarəti - gömrük qanunvericiliyinə, o cümlədən, icra olunmağına nəzarət prosesi gömrük orqanlarına tapşırılmış digər qanunvericiliyə riayət edilməsini təmin etmək məqsədilə gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlər toplusudur. Qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa digər bütün sərhəddən keçirilən məhsullar gömrük nəzarətinin predmeti olur. Buraya istənilən daşınan əmlak, valyuta, elektrik və digər enerji növləri və s. daxildir. Sərnişin və ya malların daşınmasında istifadə olunan bütün növ nəqliyyat vasitələri isə gömrük nəzarətinin obyektidir. Mal və nəqliyyat vasitələriinin ixracı zamanı gömrük bəyannaməsi təqdim edildiyi andan etibarən gömrük nəzarəti başlayır, bitmə vaxtı isə seçilmiş gömrük rejiminə uyğun dəyişə bilər. Belə ki, əgər sərbəst dövriyyəyə buraxılış üçün təqdim edilirsə günlərlə, gömrük anbarı rejimi ilətəqdim edilirsə 3 ilə qədər müddət ola bilər.

Mal və nəqliyyat vasitələrinin gömrük nəzarəti bir-birindən fərqlənir. Malların gömrük yoxlanması deyildikdə ixrac və idxal, eləcə də tranzit məhsullara nəzarəti başa düşülür. Malların gömrük nəzarəti aparılan zaman ayrı-ayrı xassələr əhəmiyyət daşıdığıdan nəzarətin yarımnövləri - əl yükü, müşaiyət olunan və müşaiyət olunmayan baqaj üçün gömrük nəzarəti növləri fərqləndirilir.

Nəqliyyat vasitələrinin təsnifatında uyğun olaraq gömrük nəzarəti qeyd olunmuş formalarda aparılır:

1) Dəniz gəmilərinin gömrük yoxlanışı;
2) Çay gəmilərinin gömrük yoxlanışı;
3) Dəmiryol qatarlarının gömrük yoxlanışı;
4) Hava gəmilərinin gömrük yoxlanışı;
5) Avto nəqliyyat vasitələrinin gömrük yoxlanışı.

Bir-birilə qarşılıqlı tərəfdaşlıq edən ölkələr üçün gömrük orqanlarının gömrük yoxlanışında iştirakının xarakterindən asılı olaraq aşağıdakı nəzarət növlərini fərqləndirmək olar:

1) İkitərəfli aparılan gömrük yoxlanışı – yəni, hər iki ölkənin gömrük oraqnı ayrıca nəzarəti həyata keçirir;

2) Birtərəfli aparılan gömrük yoxlanışı – bu halda ölkələrdən hər hansı birinin gömrük orqanı gömrük yoxlanış aparır;

3) Birlikdə aparılan gömrük yoxlanışı – bu halda isəhər iki ölkənin gömrük orqanlarının birlikdə gömrük yoxlanışı həyata keçirilir.

Eyni zamanda gömrük yoxlanışı birdəfəlik və təkrar formalarda aparıla bilər. Əgər mal və ya nəqliyyat vasitələri gömrük sərhədini ancaq bir istiqaməətdə keçirilirsə, bu halda birdəfəlik gömrük nəzarəti, digər halda, yəni mal və nəqliyyat vasitələri qısa müddət ərzində gömrük sərhədindən iki dəfə keçirilirsə, təkrar gömrük nəzarəti həyata keçirilir. Müəyyən hallarda təkrar gömrük nəzarəti gökrük sərhədini sadəcə 1 dəfə keçilərkən də aparıla bilər. Məsələn, əgər qaçaqmalçılıq və ya digər bu kimi hal barədə məlumat verilərsə, bu halda gömrük orqanlarının təkrar gömrük nəzarəti keçirmək hüququ var.

Həyata keçirilmə formalarına görə gömrük nəzarətinin aşağıdakı növlərini qeyd etmək olar:

- Sənədlərin yoxlanması;
- İlkin gömrük baxışının keçirilməsi;
- Ümumi gömrük müayinəsi.

Qeyd olunan formalardan mal və nəqliyyat vasitələrinin sənədlərinin yoxlanması sənədli, gömrük baxışı vəgömrük müayinəsi isə faktiki nəzarət kimi xarakterizə olunur.

Gömrük nəzarəti ümumilikdə onun həyata keçirilməsinin metod və qaydalar toplusudur. Belə ki, bu metodlara aşağıda qeyd olunanları aid etmək olar:

- İlkin olaraq aparılan sadə gömrük yoxlaması;
- Hərəkətdə olarkən aparılan gömrük yoxlaması;

- Bəzi formalar çıxılmaqla yoxlamanın bütün növləri ilə tam yoxlanış;
- Seçmə gömrük yoxlaması.

Gömrük nəzarəti gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən aparılır. Gömrük Məcəlləsinə əsasən gömrük nəzarətinin aşağıdakı formaları fərqləndirilir:

1) Gömrük məqsədləri üçün lazımi sənəd və məlumatların yoxlanması;
2) Gömrük müayinəsi – mal və nəqliyyat vasitələrinin müayinəsi, gömrük nəzarətinin xüsusi forması olan şəxsi müayinə;
3) Qeydiyyat aparılması;
4) Şifahi sorğu;
5) Bütün hesabat sənədlərinə nəzarət;
6) Saxlama, gömrük anbarlarına nəzarət, sərbəst zonaların yoxlanması.

Gömrük nəzarəti həyata keçirilərkən əsas yük gömrük bəyannaməsidir. Yük gömrük bəyannaməsi rəsmi sənəddir, mal və nəqliyyat vasitələriini gömrük sərhədindən keçirərkən və ya gömrük rüjimi dəyişilərkən doldurulur. Bütövlükdə gömrük nəzarəti 5 prosedur mərhələsində aparılır:

1-ci mərhələdə yük gömrük bəyannaməsində göstərilən məlumatlara ilkin formal-məntiqi baxış keçirilir. Belə ki, ilk növbədə yük  şöbəsi tərəfindən bəyannamədə qeyd olunan bütün xanaların düzgün doldurulması yoxlanılır, tələb olunan sənədlərin qaydasında olması müəyyən olunur. Yük gömrük bəyannaməsi yoxlandıqdan sonra nömrələnir və aşkarlanmış səhvləri düzəltmək üçün deklaranta təqdim olunur.

2-ci mərhələdə yük gömrük bəyannaməsində qeyd olunan xarici valyutada hesablaşma əməliyyatları nəzarətdən keçirilir. Həmçinin XİF iştirakçısının valyuta nəzarəti qanunvericiliyinə əməl etməsinə nəzarət edilir.

3-cü mərhələ üzrə gömrük ödənclərinin hesablanma dəqiqliyi, gömrük güzəştləri verilməsinin qanunauyğunluğu yoxlanır, ödənişlərin gömrük orqanları hesabına köçməsinə nəzarət olunur.

4-cü mərhələ üzrə statis şöbə tərəfindən gömrük statistika sənədlərində vacib bəndlərin tamamlanmasına nəzərdən aparılır.

Yekunda, 5-ci mərhələ üzrə isə yükləmə şöbəsində aidiyyatlı şəxs tərəfindən sərhəddən keçirilən məhsulların gömrük nəzarəti barədə haqqında son qərar qəbul olunur (A Şəkərəliyev, C.Nuriyev, A.Əliyev, 2003, s.45).

Mallar və nəqliyyat vasitələri əgər ixrac gömrük rejimi altında yerləşdirilərsə, ümumi qaydalar bəyan edilir və gömrük rəsmiləşdirilməsinə keçilir. Ümumiyyətlə gömrük rəsmiləşdirilməsi Gömrük Məcəlləsinin 17-ci maddəsinin 16-cı bəndinə əsasən malların və nəqliyyat vasitələrinin hər hansı gömrük nəzarəti rejimində yerləşdirilməsi və rejimin fəaliyyətinin yekunlaşmasıdır. Malların ixracı və idxalında gömrük rəsmiləşdirilməsi qanunvericilik aktları, eyni zamanda beynəlxalq konvensiyalarda qeyd olunmuş normalarla gömrük orqanlarının qanunvericiliklə təyin etdiyi vaxtda aparılır. Gömrük rəsmiləşdirməsinin harada və nə vaxt keçirilməsi aşağıdakı faktorlardan asılıdır:

a) Daşınan məhsulların xassələri;

b) Daşınan məhsulların mənşə ölkəsi;

c) Gömrük sərhədindən keçirilən malların daşındığı nəqliyyat növü;

d) Gömrük sərhədindən keçirilən malların alıcısının yerləşdiyi yer və s. (GM,m.103).

Sərhəddən keçirilən məhsulların lazımi gömrük əməliyyatı altında yerləşdirilməsinə aid şərtlərə uyğun gömrük prosedurları reallaşdırıldıqdan qanunla nəzərdə tutulan ödənişlər tamamlandıqdan sonra gömrük rəsmiləşdirilməsi prosesi yekunlaşır (GM, m.106.2). Əgər daxili mallar ölkə ərazisindən xaricdə daimi qalması üçün gömrük sərhədini keçirilirsə, bu halda ixrac gömrük proseduru altında yerləşdirirlər. Gömrük yoxlamasının bütün mərhələri yekunlaşdıqdan sonrakı proses olaraq məhsul sənədlərə "Buraxılışa icazə verilir" ştampı vurulur, yük gömrük bəyannaməsinin nömrəsi şəxsi nömrəli möhürlə təsdiqlənir.

## 2.2. İxrac əmtəə-coğrafi strukturu və makroiqtisadi təhlili

Strateji cəhətdən əlverişli ərazidə yerləşən Azərbaycan həm siyasi həm də iqtisadi məsələlərdə dünya dövlətlərinin, ayrı-ayrı regional və beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Dünya dövlətləri ilə xarici iqtisadi əlaqələr ölkə iqtisadiyyatının çoxsahəli inkişafına səbəb olur ki, bu əlaqələrin inkişafı və genişləndirilməsi mühüm əhəmiyyətə malikdir. Ölkəmiz zəngin iqtisadi potensiala malik olsa da digər xarici dövlətlərin diqqətini əsasən xammal mənbəyi olaraq cəlb edir. Lakin xarici təcrübə göstərir ki, təkcə xammal ixracı ilə kifayətlənmək olmaz. Məlumdur ki, təbii ehtiyatlar tükənən və tükənməz olur. Bu halda xüsusən də tükənən ehtiyatların ixrac olunmasından daha çox hazır məhsula çevirərək ixrac olunmasına diqqət yetirmək lazımdır. Xüsusilə də hal-hazırda mövcud vəziyyətdə xammal ixracı xarici bazar qiymətlərindən asılılağa gətirib çıxarır ki, bu da öz növbəsində ölkə iqtisadiyyatına olduqca mənfi təsir göstərməkdədir. Bu kimi mənfi təsirlərin qarşısını almaq, eyni zamanda iqtisadi inkişafa nail olmaq məqsədilə bir sıra addımlar atılmışdır və hazırda da davam etdirilir. Belə ki, bildiyimiz kimi ölkə iqtisadiyyatı uzun müddət neft və neft məhsullarının ixracından asılı olmuşdur. Bununla bağlı qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində dövlət proqramları hazırlanır. Belə ki, 2019-cu ildə ÜDM əvvəlki ilə nisbətən 2,2% artmış və 81 681,0 milyon manat olmuşdur. Sənayenin neft-qaz sektorunda əlavə dəyər 2əvvəlki illə müqayisədə 0,4% artmış 30 091,0 milyon manat, eyni zamanda qeyri-neft sektorunda əlavə dəyər 14,5% artaraq 3 754,0 milyon manat olmuşdur. Sənayedə 2018-ci ilə nisbətən ümumi buraxılış 1,8% artaraq 46 735,5 milyon manat təşkil etmişdir. İqtisadiyyat Nazirliyinin təqdim etdiyi məlumatlara əsasən qeyri-neft sənayesində əsas artım mebeldən başqa ağacın emalı və ağacdan məmulatları(82,9%), tütün məmulatları(80,7%), hazır metal məmulatları (80,0%), kompüter, elektron və optik məhsullar (51,8%), içki məhsulları(41,4%), toxuculuq sənayesi məhsulları(33,2%), mebel istehsalı(29,5%), maşın və avadanlıqların quraşdırılması və təmiri(27,5%), kimya sənayesi (25,6%), kağız və karton məhsulları istehsalı(25,5%), rezin və plastik kütlə məmulatları(22,0%), qida məhsulları(10,8%),

tikinti materialları (5,0%), maşın və avadanlıqların istehsalı(1,0%) sahələrində müşahidə olunmuşdur (https://economy.gov.az).

Son illərdə qeyri-neft sənayesinin artım tempini aşağıdakı formada göstərmək olar:

**Qrafik 1: Qeyri-neft sənayesinin artım tempi (faizlə)**




**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2019/30175/)

Ölkəmizin ixracının əmtəə strukturunun təhlilinə əsasən üstünlüyü mineral məhsullar xüsusilə də neft və neft məhsulları, daha sonrakı sıralarda isə bitki mənşəli məhsullar əsasən də tərəvəz və meyvə ixracı təşkil edir. Aşağıdakı cədvəldə ixracın əmtəə strukturunda əsas üstünlüyə malik məhsullar göstərilmişdir:

**Cədvəl 2: İxracın əmtəə strukturu (min ABŞ dolları ilə)**

| Mal qrupları | 2016 | 2017 | 2018 |
|---|---|---|---|
| **Cəmi** | **13 457 592,1** | **15 319 977,1** | **19 458 632,5** |
| **Mineral məhsullar** | **12 301 219,8** | **13 911 994,5** | **17 920 300,0** |
| Duz, kükürd, torpaq və daş, əhəng və sement | 15 152,7 | 25 247,4 | 26 199,7 |
| Filizlər, şlaklar və kül | 15 906,7 | 19 579,1 | 19 485,0 |
| Neft və neft emalı məhsulları | 12 270 160,4 | 13 867 168,0 | 17 874 615,3 |
| **Bitki mənşəli məhsullar** | **386 559,7** | **518 273,9** | **585 473,9** |
| Tərəvəzlər və meyvəköklülər | 129 022,1 | 210 089,9 | 233 313,9 |
| Meyvələr və çərəzlər | 243 755,4 | 292 653,9 | 326 313,9 |
| Qəhvə, çay, mate və ədviyyatlar | 6 197,7 | 10 291,0 | 9 383,6 |
| Dənli bitkilər | 2 618,7 | 11,9 | 7 802,8 |
| Unüyütmə məhsulları, maya, nişasta | 61,2 | 59,9 | 507,1 |
| Yağlı toxum və dərman bitkiləri | 2 880,1 | 3 486,8 | 6 579,9 |
| Bitki ekstrakları | 1 410,9 | 1 146,5 | 1 059,6 |
| **Hazır ərzaq məhsulları,** | **117 633,9** | **110 982,8** | **90 707,7** |
| Ətdən və balıqdan alınan hazır məhsullar | 366,4 | 393,2 | 335,9 |
| Qənnadı məmulatları | 62 275,4 | 40 244,2 | 25 474,3 |
| Kakao və ondan hazırlanan məhsullar | 4 940,7 | 6 017,1 | 3 784,4 |
| Tərəvəz, meyvələrin digər hissələrinin emal məhsulları | 11 414,9 | 15 471,4 | 17 426,4 |
| Spirtli və spirtsiz içkilər | 18 731,3 | 21 923,1 | 16 249,3 |
| Tütün və tütünün sənaye əvəzediciləri | 8 898,9 | 15 304,0 | 14 264,9 |
| **Plastik kütlələr, kauçuk, rezin məmulatları** | **99 649,2** | **102 514,2** | **119 289,5** |
| Plastik kütlə məmulatları | 98 974,8 | 101 120,1 | 118 592,8 |
| Kauçuk,rezin məmulatları | 674,4 | 1 394,1 | 696,7 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Həmçinin ixracın əmtəə strukturununda az qiymətli metallar və məhsulları üzrə – qara metallar, qara metallardan məmulatlar, alüminium və ondan hazırlanmış məhsullar, mis və ondan hazırlanmış məhsular, qiymətli daşlar və metallar, mirvari, kimya sənayesi məhsulları üzrə – əsasən kimyəvi üzvi birləşmələr, əczaçılıq məhsulları,

qeyri üzvi kimya məhsulları, boyalar, laklar və s. digər kimyəvi məhsullar, toxuculuq məmulatları üzrə – pambıq, ipək, kimyəvi saplar, toxunma trikotaj parçalar və s. digər hazır toxuculuq məhsulları da tərkib təşkil edir.

2019-cu ilin yanvar-dekabr ayları ərzində respublikamızın ixracı 19,6 milyard ABŞ dolları olmuş, əvvəlki ilin müvafiq dövrilə müqayisədə 146 miyon ABŞ dolları (1%) artmışdır. Qeyri-neft sahəsi üzrə 1,954 milyard dollar dəyərində məhsul ixrac olunub ki, 2018-ci ilin müvafiq dövrünə nisbətən 15,7% - yəni 265 milyon dollar artımla müşahidə olunmuşdur.

Respublikamızda ixracın coğrafi strukturuna nəzər saldıqda isə, daha çox ixrac əməliyyatlarının aparıldığı ölkələr arasında Avropa ölkələrinin üstünlük təşkil etdiyini görərik. İxracın coğrafi strukturunda üstünlüyü aşağıdakı cədvəl əsasında təhlil etmək olar:

**Cədvəl 3: İxracın coğrafi quruluşu (min ABŞ dolları ilə)**

| Coğrafi regionlar | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Cəmi** | **21 828 608,9** | **12 729 138,5** | **13 457 592,1** | **15 319 977,1** | **19 458 632,5** |
| **o cümlədən:** | | | | | |
| Avropa | 12 494 567,7 | 7 384 636,2 | 8 211 537,6 | 9 918 332,3 | 11 890 724,0 |
| Asiya | 7 800 307,6 | 4 488 095,0 | 4 819 961,3 | 4 559 216,0 | 6 359 004,7 |
| Amerika | 994 137,7 | 561 912,9 | 182 568,6 | 656 943,9 | 1 015 542,9 |
| Afrika | 539 124,8 | 293 872,5 | 243 248,8 | 184 796,4 | 192 801,1 |
| Okeaniya | 471,1 | 621,9 | 275,8 | 688,5 | 559,8 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik məlumatları (https://www.stat.gov.az/source/trade/)

Faiz nisbətilə qeyd etsək ixrac məhsulların 61%-i Avropa ölkələrinə, 33%-i Asiya, 5%-i Amerika və 1%-i isə Afrika ölkələrinə ixrac olunur.

Ayrı-ayrı məhsullar üzrə təhlil etdikdə Rusiya Federasiyasına ixrac olunan məhsullar böyük əksəriyyət təşkil edir. Belə ki, əsas səbəblərindən biri olaraq bu

ölkənin Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün böyük bazara sahib olmasını qeyd etmək olar. Dövriyyənin çox olmasına həmçinin keçmişdə də olmuş ticari-iqtisadi münasibətlərin mövcudluğu və eyni zamanda hal-hazırda orada yaşayan azərbaycanlıların da təsiri böyükdür. Bu aspektdən Azərbaycan üçün Rusiya mühüm iqtisadi məkandır. Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumatlara əsasən 2018-ci ildə ölkə xaricinə ixrac olunan mühüm növ məhsullardan tərəvəz məhsulları – Rusiya, Gürcüstan, Ukrayna, İraq, Bolqarıstan, Türkmənistan, meyvə – Rusiya, Ukrayna, Qazaxıstan, İtaliya, Almaniya, Gürcüstan, reaktiv mühərriklər üçün kerosin yanacağı – Əfqanıstan, Lüksemburq, Rusiya, İtaliya, Türkiyə, BƏƏ, Ukrayna, Almaniya,Gürcüstan, Qətər və s., atsiklik spirtlər və törəmələri – Türkiyə, Sloveniya, Rumıniya, İsrail, Bolqarıstan, Niderland, Rusiya və s., neft koksu – rusiya, Hindistan, Ukrayna, Tacikistan və s. ölkələrə ixrac olunmuşdur (www.stat.gov.az).

Ümumilikdə qeyri-neft sektoru üzrə isə 2018-ci il ərzində Rusiyaya 619,2 mln, Türkiyəyə 344,9 mln, İsveçrəyə 135,4 mln, Gürcüstana 124,5mln, Qazaxıstana 44,6 mln ABŞ dolları dəyərində məhsul ixrac olunmuşdur.

2019-cu ildə bu göstəricilərə müvafiq olaraq, yəni qeyri-neft sektörü üzrə Rusiyaya 690,6 mln, Türkiyəyə 401,8 mln, İsveçrəyə 179 mln, Gürcüstana 159,1 mln və Ukraynaya 50,6 mln ABŞ dolları dəyərində mal ixrac olunmuşdur.

2020-ci ilin yanvar-fevral aylarında isə qeyri-neft sektoru üzrə ən çox məhsul ixracı Rusiyaya(134.4 mln $), Türkiyəyə(104.4 mln $), Gürcüstana(42.9 mln $), İsveçrəyə(40.8 mln $) olmuşdur (http://www.iqtisadiislahat.org/).

## 2.3. İxrac stimullaşdırılmasının təşviq mexanizmləri və bu sahədə fəaliyyət göstərən dövlət orqanları sistemi

Həm ixracın stimullaşdırılması, həm də dövlətin mənafeyini müdafiə etmək önəmli məsələlərdən biridir və hər zaman diqqətdə saxlanılmalıdır. Hər bir ölkə ixrac qabiliyyətinin artırılmasında maraqlıdır ki, bunun sayəsində də beynəlxalq bazarda öz mövqeyini möhkəmləndirir. İqtisadiyyatın neft və neft məhsullarından asılılığının başlıca səbəblərindən biri digər sənaye sahələrinin zəif inkişaf etməsi olmuşdur. Qəbul edilən dövlət proqramlarının təhlili göstərir ki, iqtisadiyyatın diversifikasiyası dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir. Belə ki, iqtisadi diversifikasiya məqsədilə prioritet olaraq aşağıdakı qeyri-neft sahələrinin yüksək inkişafı hədəf olaraq müəyyən edilmişdir:

- Turizm;
- Maldarlıq və bitkiçilik;
- Balıq sənayesi və balıqçılıq;
- Tütünçülük və şərabçılıq;
- Toxuculuq və ipəkçilik;
- Cihazqayırma sənayesi;
- Kimya sənayesi;
- Elektroenergetika sənayesi;
- Rabitə və İKT və s.

Həmçinin dövlət proqramları və strategiyalar ixdalın əvəzlənməsi məqsədilə məhsul istehsalına, regionların inkişafına, insan kapitalının inkişafı istiqamətində təhsil sektorunun inkişafına, qeyri-neft məhsullarının ixracının artırılması və diversifikasiyasına yönəlmişdir.

Konstitusiyanın 119-cu maddəsinə əsasən iqtisadi proqramların reallaşdırılması və iqtisadi sektorda fəaliyyət həyata keçirən ali icra hakimiyyət orqanlarına rəhbərlik etmək üçün bilavasitə Nazirlər Kabineti məsul qurumdur. Bu sahədə fəaliyyət göstərən orqanları 2 qrupda qeyd etmək olar:

2. İqtisadi siyasət alətləri ilə iqtisadi siyasət və stimullaşdırmanı reallaşdıran orqanlar:

a) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;

b) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi;

c) Azərbaycan Respublikasının Mərkəzi Bankı;

d) Azərbaycan Respublikasının Vergilər Nazirliyi;

3. Qeyri-neft sektorunun stimullaşdırılması və inkişafına məsul orqanlar:

a) Azərbaycan Respublikası Energetika Nazirliyi;

b) Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;

c) Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi;

d) Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi.

İqtisadi siyasətin hazırlanması, reallaşdırılması proseslərinə başlıca məsul ali icra hakimiyyət orqanı İqtisadiyyat Nazirliyidir. Nazirliyin əsasnamə ilə mühüm funksiyaları olaraq aşağıda qeyd olunanları göstərmək olar:

a. Ölkəmizin iqtisadiyyatında struktur və innovasiya siyasətinin hazırlanaraq reallaşdırılması;

b. Sahibkarlıqda inkişafın təmin olunması və sahibkarlığa dəstək üçün dövlət siyasətinin tərtibi, reallaşdırılması;

c. Ölkə iqtisadiyyatında rəqabətin stimullaşdırılması və inkişafı istiqamətində dövlət siyasətinin tərtibi və eləcə də həyata keçirilməsi.

Hazırda ölkəmizdə qarşıya qoyulmuş vacib vəzifələrdən qabaqcılı qeyri-neft sənayesində ixracı potensialının yüksəldilməsi üçün bu sahədə mövcud olan və perspektiv ehtiyatların aşkara çıxarılması və ondan daha məhsuldar, daha da səmərəli istifadəyə nail olunmasıdır. Mövzunun aktuallığını artıran məqamlardan biri ondan ibarətdir ki, önəmli ixracat məhsulu olan neft və neft məhsullarının xarici bazarda qiymətinin ucuzlaşması səbəbi ilə son dövrlərdə ixracdan valyuta gəlirləri azalır və ixrac potensialı aşağı düşür. Belə ki, bu cür situasiyalar ölkənin milli valyutasının xarici

aparıcı valyuta vahidləri ilə müqayisədə ucuzlaşmasında, tədiyyə balansında mənfi saldonun artmasında, xarici ticarət dövriyyəsinin müsbət qalığının azalmasında öz mənfi təsirlərini göstərir. Eləcə də ölkənin milli valyutasının devalvasiyaya məruz qalması idxal olunan məhsulların milli valyuta ilə dəyərləndirilən qiymətinin yerli bazarda bahalaşmasına gətirib çıxarır. Belə bahalaşma olduqda ölkədaxili istehsal olunan əmtəələrə üstün qiymət rəqabəti yaradır və ölkədaxili istehsal və xidmət sahələrinin inkişafına şərait yaradır. Bu halda həm idxalı əvəzləyən yerli istehsalın artırılması, həm də ixrac imkanlarının artırılması istiqamətində yeni-yeni şərait formaları yaranır. Bu yöndə 16 mart 2016-cı il tarixində "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"dən qeyri-neft sənayesi sahələrində ixracın stimullaşdırılması üçün proqramlar reallaşdırılmaqdadır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində ixraca yönəlik iqtisadi model prioritet qəbul olunaraq, yuxarı həcmdə əlavə dəyər yaradacaq ixracyönümlü iqtisadiyyata çevrilmə əsas məqsəd olaraq müəyyən edilmişdir. Bu yöndə vacib məqamlardan biri qeyri-neft sənayesində davamlı inkişaf tempini saxlayaraq, ixracat imkanlarını yüksəltməkdir. Odur ki, İqtisadiyyat Nazirliyinə ixrac potensialının artırılması üçün Azərbaycanda bir sıra dövlət və qeyri-dövlət insitut və təşkilatlar yaradılması tapşırılıb. Azərbaycan Respublikasında ixracın stimullaşdırılmasının və qeyri-neft sektorunun inkişafı sahəsində İqtisadiyyat Nazirliyi böyük işlər görür. Nazirlik öz əsasnaməsinə görə mərkəzi icra hakimiyyəti orqanı kimi ölkəmizin sosial-iqtisadi inkişafı və beynəlxalq əməkdaşlığı, həmçinin makroiqtisadi, ticarət, investisiya qoyuluşu, sahibkarlığın inkişafı, inhisarçılığın məhdudlaşdırılması və rəqabətin inkişafı sahəsində dövlət siyasətini formalaşdırır.

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC POTENSİALINDAN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. İxracın strukturunun təkmilləşdirilməsi istiqamətləri

Ölkəmizdə ixracın müsbət istiqamətdə stimullaşdırılması, davamlı iqtisadi inkişafa nail olmaq üçün ilk növbədə ixrac potensialı yüksəldilməlidir ki, bunun üçün isə ixracyönümlü sənaye sahələri və xidmət sahələri inkişaf etdirilməlidir, innovativ həllər seçilməlidir. İxracın müsbət yöndə stimullaşdırılması üçün ilk növbədə ixrac olunan əmtəələrin diversifikasiyası gərəklidir. Çoxşaxəli ixracın olması ölkə iqtisadiyyatının da hərtərəfli inkişafına gətirib çıxarır. Ölkəmizdə ixracın strukturunun təkmilləşdirilməsi istiqamətində ilkin addım olaraq qeyr-neft məhsullarının istehsalı və ixracı diqqət mərkəzindədir. Ölkə iqtisadiyyatının diversifikasiyasına mənfi təsir edən bir neçə səbəblər vardır ki, bunlardan biri xammal ixrac edən ölkələr üçün xas olan "Holland sindromu"-dur. "Holland sindromu"-nun mahiyyətini belə izah etmək olar ki, xammal ixrac edən ölkələr üçün ölkəyə daxil olan valyuta ehtiyatlarının çoxluğu milli valyutanın bahalaşmasına və beləliklə də ölkədaxili bir sıra iqtisadi sahələrin rəqabət qabiliyyətinin zəifləməsinə səbəb olur. Digər mənfi təsirlərdən biri iqtisadiyyatın neft qiymətlərindən asılı olmasıdır. Belə ki dünya bazarında neftin qiyməti çox dəyişkəndir. Belə olduğu halda neft qiymətlərinin gözlənilmədən aşağı düşməsi ölkə üçün kifayət qədər itkilərə səbəb ola və iqtisadiyyata həddindən artıq mənfi təsir edə bilir ki, bu hal daha öncəki illərdə baş vermişdir. Eyni zamanda təkcə neft sektorunun inkişafı ölkədə işsizlik probleminin həllinə də çox təsir edə bilmir. Çünki iqtisadi cəhətdən fəal ölkə əhalisinin sadəcə 2-3%-i neft sektorunda çalışır. Eləcə də ixracatda neft xammalı və neft məhsullarının üstünlük təşkil etməsi ixracın həmin ölkələrdən asılı olmasına gətirib çıxarır. İxracın əsasını təşkil edən neft xammalının əsas alıcıları İtaliya və İsraildir ki, ölkənin xarici ticarət dövriyyəsinin çox hissəsini təşkil edir.

Aşağıdakı cədvəldə prioritet sayılan qeyr-neft sekrtorundakı sahələrin müxtəlif meyarlar üzrə təhlili qeyd olunmuşdur. Seçilmiş sahənin digər sahələrlə əlaqəsi, ixrac potensialı, idxalı əvəzetmə səviyyəsi və eyni zamanda əməktutumluluq səviyyəsi əsas qiymətləndirmə meyarları olaraq götürülmüşdür.

**Cədvəl 4: Prioritet elan olunmuş qeyri-neft sektorlarının beynəlxalq seçim meyarlarına görə qiymətləndirilməsi**

| Sektorlar | Sektorun digər sektorlarla əlaqəsi | Sektorun əməktutumlu olması | Sektorun ixrac potensialı | Sektorun idxalı əvəetmə potensialı |
|---|---|---|---|---|
| **Kənd təsərrüfatı** | Yüksək | Yüksək | Yüksək | Yüksək |
| **Balıqçılıq** | Orta | Zəif | Yüksək | Yüksək |
| **Yeyinti sənayesi** | Yüksək | Orta | Yüksək | Yüksək |
| **Yüngül sənaye** | Orta | Orta | Orta | Orta |
| **Tikinti sənayesi** | Orta | Orta | Orta | Orta |
| **Kimya sənayesi** | Yüksək | Yüksək | Yüksək | Yüksək |
| **Cihazqayırma** | Orta | Orta | Orta | Zəif |
| **Turizm** | Orta | Orta | Zəif | Zəif |
| **Elektroenergetika** | Orta | Zəif | Yüksək | Yüksək |
| **Təhsil** | Orta | Yüksək | Zəif | Orta |

**Mənbə:**İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi (http://ebooks.az/view/K2agNVnY/)

Aqrar sektorun yüksək ixrac və idxalı əvəzetmə potensialına malik olması ilə həm də bu sahənin inkişafı üçün əlverişli şərait mövcuddur. Bu sahənin inkişafı üçün dövlət proqramları hazırlanmış, müxtəlif layihələr həyata keçirilmişdir. Həyata keçirilən tədbirlər sayəsində aqrar sahənin inkişafı müşahidə olunsa da, müəyyən problemlər hələ də qalmaqdadır. Belə ki, hələ də rəqabətədavamlı yüksək keyfiyyətdə məhsul istehsalında çatışmazlıqlar var. Bu, xüsusilə beynəlxalq standartlara cavab verən veterinar, fitosanitar laboratoriyaların azlığı və əlçatanlığın zəif olması ilə bağlıdır. Kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin mineral gübrələrlə təmin olunmasında bir sıra problemlər yaranır. Gübrələrin lazımi keyfiyyətdə olmaması, qiymətlərin fermerlər üçün sərfəli olmaması maneələr yaradır. Həmçinin mövcud ixrac üçün məhsulların sertifikatlaşdırılmasında çatışmazlıqlar, məhsulların xarici bazarlara

çıxarılmasında yaranan problemlər tədricən aradan qaldırılması bu sahənin inkişafına və ixrac strukturunda önəmli paya malik olmasına səbəb ola bilər.

İxrac strukturunun təkmilləşdirilməsində AİŞ-in xidmətlərini və qarşıya qoyulmuş məqsədləri də qeyd etmək lazımdır. Belə ki, Respublika Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" çərçivəsində qeyd olunmuş seçilmiş məhsullar AİŞ-in prioritet məhsulları siyahısına əlavə olunub:

**Cədvəl 5: AİŞ üçün prioritet məhsulların siyahısı**

| **Məhsulların adları** | |
|---|---|
| Minik avtomobilləri və avtobuslar | Özügedən yer qazan və tunel qazan maşınlar |
| Akkumulyatorlar (porşenli mühərriklərin işə salınması üçün) | Özügedən yer və tunelqazan maşınların hissələri |
| Minik və yük avtomobilləri üçün şinlər | Rezervuarlar, sisternlər, kranlar, klapanlar, ventillər |
| Yağ və yanacaq süzülməsi üçün filtrlər, hava filtrləri | Rezervuarlar, sisternlər, çənlər və ya analoji qablar üçün kranların, klapanların və ventillərin hissələri |
| Kənd təsərrüfatı üçün traktorlar | Maye nasosları |
| Lifli-optik kabellər | PVC polimeri |
| Elektrik naqilləri | Elektrik qaynağı üçün istifadə olunan elektrodlar |
| Transformatorlar | Metal konstruksiyalarında istifadə üçün nəzərdə tutulmuş məmulatlar |
| Sintetik yuyucu vasitələr | Qara metallardan nasos-kompressor və qazma boruları |
| Kosmetika məhsulları | Qaz sayğacları |
| Hidrogen peroksid məhsulu | Maye sayğacları |
| Bitumdan izolyasiya məhsulları və digər məhsullar | Elektrik sayğacları |
| Xlor və xlor məhsulları, kaustik soda | Aliminum məhsulları |
| İzopropil spirti | Yod-brom birləşməli kimyəvi məhsullar |
| Təbii sialitlərdən məhsullar | Melamin məhsulu |
| Fenol formaldehid qətranları | Üzvi kimya məhsulları |

**Mənbə:** Azərbaycan İnvestisiya Şirkəti, https://aic.az/az/pages/id:86

İxracda optimal və səmərəli fəaliyyətin reallaşdırılmasında əsas məqamlardan ən vacibi də beynəlxalq səviyyədə ixtisaslaşma və ticarət prosesi üçün tələblərə görə diversifikasiyadır. Belə olduqda tələbata uyğun yüksək keyfiyyətdə istehsal olunmuş məhsullarn payının yüksəldilməsi, və idxaldan asılılığın aradan qaldırılmasını şərtləndirir.

Ölkəmizdə turizm sektorunun inkişafı üçün geniş imkanlar mövcuddur. Dünya miqyasında sağlamlıq turizminə tələbatın artmaqda olduğu indiki dövrdə Naftalan neftinin və digər mövcud və yeni sağlamlıq məhsullarının artırılmasının stimullaşdırılması ön plana çəkilməlidir. Bununla bağlı "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"-də tədbirlər planı qeyd olunmuşdur. Bu istiqamətdə Turizm Şurasının təşəbbüsü ilə Naftalan neftindən istifadə olunaraq hazırlanacaq yeni kosmetik məhsulların - kremlər, azotqliserin və s. növlərinin müəyyən olunması üçün aidiyyətli mütəxəssislərdən təşkil olunmuş xüsusi Naftalan neft-tədqiqat qrupu formalaşdırılacaq. Mövcud istehsal olunan məhsullarla yanaşı müxtəlif yeni məhsullar da daxil olmaqla brendləşməsi və bu sahədə digər müəssisə və firmaların təklif və layihələrinin dəstəklənməsi nəzərdə tutulmuşdur. Beynəlxalq səviyyədə bu məhsulun müalicəvi faydasını təsdiq edən keyfiyyət sertifikatının təstiqlənməsi qarşıya qoyulmuşdur. Bu sahədə davamlı yüksək keyfiyyətdə məhsul istehsalına özəl müəssisələrin də cəlb olunması üçün müəyyən stimullaşdırma formaları ilə əlaqədar təkliflərin hazırlanması və reallaşdırılması ön plana çəkilmişdir. Belə ki, xarici və yerli turistlərin cəlb olunması məqsədilə müəyyən marketinq tədbirlərinin reallaşdırılması, o cümlədən Naftalan neftindən 61 növdə gözəllik və sağlamlıq məhsullarının bir çox ödənişsiz testlərinin təqdim edilməsi masaj və spa müalicəsi ilə maraqlanan turistlər üçün Bakı və Naftalan arası subsidiyalı səfərlərin təşkil edilməsi nəzərdə tutulub. Ölkənin turizm mərkəzləri haqqında məlumatlılıq səviyyəsini artırmaq üçün belə növ məhsulların üz hissəsində Azərbaycan mədəniyyətinə və xüsusi cəlbediciliyə malik turistik məkanlara aid şəkil və formaların qeyd edilməsi məqsədəuyğundur.

Artıq hazırki dövrdə ölkəmiz beynəlxalq bazara tam olaraq rəqabətqabiliyyətli əmtəə emal edib çıxarma imkanına qadirdir. İqtisadçıların bir çoxu hər hansı ölkənin xammal ixracatına orientasiyasını ən böyük bəla olaraq qeyd edirlər. Xammal ixracı çox zaman öz növbəsində sənaye məhsullarının istehsalı həcminin azalmasına gətirib çıxaran amil olaraq qalmaqdadır. Xammal ixracı payının artması ilə ÜDM tərkibində emal sənayesinin payının azalması dünya təcrübəsində qanunauyğun hal olaraq qəbul olunur. Təbiidir ki, ixrac payının bu formada strukturu səmərəli və effektiv sayılmır. Respublikamızın xarici ticarət dövriyyəsinin strukturunu təkmilləşdirmək və mükəmməl səviyyəyə çatdırmaq üçün ilk olaraq ixrac strukturunda emal sənayesi məhsullarının və xüsusən də hazır məhsul ixracı payının hər növbəti dövr üzrə artırılması zəruridir. Bunun üçün isə perspektivdə həyata keçirilməli işlər həddindən çoxdur. Mövcud dövrdə bu növ təcrübə ölkəmiz üçün də çox vacibdir. Səbəb isə ölkəyə valyuta cəlbinin digər əlavə alternativinin olmamasıdır. Bütün bu qeyd olunanlardan də belə nəticəyə gəlmək olar ki, rəqabətqabiliyyətliliyə malik məhsul istehsalı ilə beynəlxalq bazara daxil ola bilən sahələr üçün dövlət tərəfindən müəyyən dərəcədə dəstəyin göstərilməsi labüddür. Belə dəstək birbaşa olaraq– yəni dotasiyalarla, güzəştli kreditləşmə aparmaqla və s., eləcə də dolayı formada– vergi tutulmalarında güzəştləri tətbiq edilməsi, ixracda sığortalanmanın təmin olunması sayəsində, ixracda uğurlu müəssisələrə mükafatlar verilməsi və başqa dəstək növləri tətbiq edilə bilər. Məsələn, dövlət ixraca yönəlik müəssisə və şirkətlər üçün kadr hazırlığını öz üzərinə götürə, eyni zamanda onların ölkə xaricindəki fəaliyyəti üçün əlverişli iqtisadi və siyasi şərait yarada bilər. Lakin müəyyən dərəcədə müsbət tendensiya da müşahidə edilməkdədir ki, misal olaraq ölkəmizin ümumi ixracında özəl sektorun payının möhkəmlənməsi və yüksəlməsini qeyd edə bilərik. Bu bazar münasibətləri şəraitində, eləcə də sənaye və kənd təsərrüfatı istehsalında milli sahibkarlığın rolunun artdığı dövrdə tam qanunauyğun bir haldır. O cümlədən, bazar münasibətlərinin müəyyən dövrlərdə zəif və davamlı olmadan inkişaf etməsi ölkədaxili istehsal prosesini ləngidir və özəl sektor hesabına ixracın artımına zəmin yaradır. Beynəlxalq bazarlarda iştirak edərkən

sahibkarların hər birinin bərabər hüquqları haqqında qanunun mövcud olsa da mövcud zamana qədər ayrı-ayrı müəssisələrə və firmalara qarşı müəyyən diskriminasiya müşahidə olunmaqdadır. XİF-in müəyyən sahələrində inhisarçılıq və korrupsiya hallarının olması da ixrac və idxalın davamlı inkişafına mane olur. Qeyd olunanlardan əlavə xarici təcrübə göstərir ki, güclü rəqabət mühiti olmadığı halda ixracın inkişafı, struktur təkmilləşdirilməsindən bəhs olunması yersizdir. Bu səbəbdən də ixrac potensialının artırılması və ixracın diversifikasiyası məqsədilə bu problem daha çox diqqət mərkəzində olmalı və hərtərəfli olaraq özəl sektoru stimullaşdırmalıdır.

## 3.2. İxrac əməliyyatlarının prosedur mərhələrinin təkmilləşdirilməsi istiqamətləri

Ümumilikdə dünya ölkələrinin təcrübəsində beynəlxalq ticarətin inkişafına nəzər yetirsək azad ticarətin həyata keçirilməsilə beynəlxalq ixtisaslaşmanın yaratdığı bütün üstünlüklərdən faydalanmağın mümkünlüyünü görərik. Buna baxmayaraq tam olaraq sərbəst ticarət yalnız nəzəriyyədə mümkündür. Çünki bu və ya digər formada dövlətlərin xarici ticarətə müdaxiləsi müşahidə olunur ki, bu da gömrük siyasəti ilə həyata keçirilir. Dünya təcrübəsində azad ticarət daha çox fayda versə də müəyyən hallarda gömrük rüsumlarının tətbiqi labüddür. Belə ki, gömrük tariflərinin tətbiqinin iqtisadi baxımdan təsirləri barədə bir çox iqtisadçılar təhlillər aparıb və mənfi, həm də müsbət təsirlərinin olması qənaətinə gəliblər. Amerikan iqtisadçısı P.X.Lindertin bu istiqamətdə aşağıdakı ümumiləşmiş mənfi nəticələrini qeyd etmək olar:

1. Gömrük tarifləri həm ticarət edən ölkələrdə, eyni zamanda onun təşəbbüsçüsü olan ölkədə rifah səviyyəsinin əksər hallarda aşağı düşməsinə səbəb olur.
2. Tarif tətbiq edilməsilə əldə olunmuş nailiyyətlərə alternativ istiqamətlərlə və daha yüksək nəticələr almaq mümkündür.

İqtisadçının qeyd etdiyi aşağıdakı hallarda isə bu istiqamətdə müsbət nəticələr əldə etmək mümkün ola bilər:

1. “Optimal tarif”dən istifadə olunarsa: yəni ölkə əgər hər hansı məhsulun dünya üzrə qiymətinə təsir edə bilirsə, bu halda tarifin elə bir optimal səviyyəsini tapmaq olar ki bu halda xalis mənfəət əldə olunsun

2. Tarif tətbiqi qaçılmazdırsa: bu o halda faydalı ola bilər ki, ölkədə həll olunması mümkünsüz olan problem müşahidə olunur və tarif tətbiqi sadəcə iqtisadi passivlikdən üstündür

3. Ayrı – ayrı xalis xarici ticarət problemləri həll edildiyi halda, bəzən gömrük tariflərinin tətbiq olunması digər iqtisadi tədbirlərdən daha səmərəli olur;

4. Gömrük rüsumları əhalinin ümumi rifah səviyyəsinin aşağı düşməsinə baxmayaraq idxalatla rəqabət aparan istehsalçılar üçün hər zaman sərfəlidir.

Bir qrup nəzəriyyəçilər sərbəst ticarətin tərəfdarı olsalar da əksini iddia edənlərdə var. Onlar səbəbi bir neçə arqumentlə əsaslandırır ki, bunlardan aşağıdakıları aid etmək olar:

1. Ölkənin müdafiəsinin təmin edilməsi – belə ki, onların fikrincə ölkənin müdafiəsi üçün gərəkli olan strateji mallar buraxan sahələri gömrük rüsumu ilə himayə etmək lazımdır. Bu milli təhlükəsizliyin təminatını yüksəltsə də, istehsalın səmərəliliyini aşağı salır;

2. Ölkədə daxili məşğulluğun artırılması – Ölkədə iş yerlərinin sayını, xüsusilə də istehsalın durğun olduğu dövrdə qorumaq məqsədi ilə siyasətçilər bəzi hallarda müəyyən mallara rüsumlar tətbiq olunmasını tələb edirlər. Belə tələblər makroiqtisadi göstəricilər təhlil edilərkən meydana gəlir. Belə ki, açıq iqtisadiyyatda məsrəflərin cəmi = istehlak xərcləri + kapital qoyuluşları + dövlət məsrəfləri + xalis ixracat. Xalis ixrac ixracla idxal arasındakı müsbət fərqdir. Belə olduğu halda idxalın azalması ilə ümumi məsrəflərin artması öz növbəsində gəlirlərin və məşğulluğun əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarır və ölkədaxili iqtisadi inkişafa müsbət təsir göstərir. Lakin, belə olduğu halda digər məsələlərə də diqqət yetirmək vacibdir:

a) Müəyyən məhsul növləri istiqamətində idxalatın aşağı düşməsi məşğulluğun səviyyəsinə təsir etsə də ümumi strukturunu dəyişməyə qadir deyil, səbəb isə məşğulluğun bir sahədə artmasına baxmayaraq, başqa bir sahədə aşağı düşür;

b) Məlumdur ki, ölkələrin hər biri idxalda məhdudiyyət tətbiq etdikdə eyni vaxtda müvəffəqiyyət qazana bilməzlər. Çünki, bir ölkənin ixracı digər ölkənin idxalıdır. Bu səbəbdən də idxala məhdudiyyət tətbiq edilməsi ilə məşğulluq səviyyəsinin yüksəldilməsi "qonşu ölkəni müflisləşdirmək" siyasətidir;

c) Bu olduğu halda rüsumlardan zərər görmüş qonşu ölkə də tədbir görmək məcburiyyətində qalacaqdır. Beləliklə ticarət sədlərinin yenidən artırılması kimi təhlükəli meylin formalaşmasına səbəb yarana bilər.

3. Sabitlik üçün istehsalın diversifikasiyasının genişləndirilməsi – bu fikir ona əsaslanır ki, hər hansı ölkədə yüksək ixtisaslaşmış iqtisadiyyatda gəlirlər xarici bazarda qiymət dəyişmələrindən çox asılıdır. Sənayenin diversifikasiyalaşması üçün isə gömrük rüsumlarının tətbiqi və beləliklə də xarici siyasi və iqtisadi sarsıntılardan qorunmağın mümkünlüyü nəzərdə tutulur;

4. İqtisadiyyatda yeni yaranmış sahələrin himayəsi – belə ki, bu arqumentə əsasən inkişaf etməkdə olan və ya zəif inkişaf etmiş ölkələrdə yeni yaranmaqda olan sahələrin himayəsi üçün müvəqqəti də olsa gömrük rüsumlarının tətbiqi məqsədəuyğundur (Şəkərəliyev A.Ş., 2009, s.114).

Hal-hazırda bir çox ölkələrdə ixracdan gəlirlərin əldə olunması və ixrac edən ölkəyə təyin olunmuş vaxtda verilməsinə valyuta nəzarəti keçirilir. Bu nəzarətin daha sərt forması Böyük Britaniyada aparılır. Həmçinin İrlandiya və İsveçdə də bu nəzarət həyata keçirilir. Belə ki, burada ixracdan əldə edilmiş valyuta vəsaitləri satış üçün müvəkkil təyin edilmiş banklara təqdim olunmalıdır. Macarıstanda bu proses valyuta vəsaitləri daxil olduqdan 8 gün, Taylandda 15 gün müddətində aparılmalıdır. İstisna olaraq bu vəsaitlər başqa ölkələrdən məhsul idxalı zamanı istifadə oluna bilər.

Ölkəmizdə 3 istiqamətdə gömrük-bank nəzarəti sistemi həyata keçirilir:

1. İlk olaraq kommersiya banklarına valyuta nəzarəti məqsədi ilə təqdim edilmiş sənədlərə nəzarət aparılır;

2. Növbəti istiqamətdə valyuta əməliyyatları üzərində cari nəzarət həyata keçirilir;

3. Yekunda isə nəticələrə nəzarət olunur ki, bu zaman baş vermiş qayda pozuntuları üzə çıxarılır, ixracdan əldə edilmiş gəlirlərin daxil edilməməsi haqqında informasiya valyuta nəzarəti orqanlarına çatdırılır. Nəzarətin bu forması məhsulların ixracı ilə bağlı hər bir valyuta əməliyyatının uyğunluğunun yoxlanmasına və ixracdan əldə edilsə də repotriasiya olunmamış valyuta gərlirlərinin real həcminin ölçülməsinə şərait yaradır.

İxrac əməliyyatları üzərində yekun valyuta nəzarəti və ya informasiya-analitik təyinatlı valyuta nəzarəti AR-nın gömrük sərhədindən çıxarılan məhsullara görə daxil edilmiş faktiki pul vəsaitləri barədə məlumatların təhlil olunmasından və eyni zamanda valyuta qanuvericliyini pozmuş şəxslərin aşkarlanmasından ibarətdir. Müvəkkil təyin olunmuş bank ölkəyə valyuta gəlirlərinin daxil olmasını müşahidə edir daha sonra Mərkəzi Banka həmin bank vasitəsi ilə həyata keçirilən valyuta əməliyyatları barəsində hesabat təqdim edir. Mərkəzi Bank tərəfindən müvəkkil olan bankların hesabatlarına əsasən valyuta nəzarəti orqanları Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi barədə məlumatlandırılır (Əzizov Ş. E, 2016, s.57).

Ümumilikdə valyuta nəzarəti dolayı və birbaşa olaraq ixrac əməliyyatlarının tənzimlənməsinə, ölkədə xarici valyuta kütləsinin həcminin tənzimlənməsinə və makroiqtisadi proseslərə təsir etməyə şərait yaradır.

Qərbi Avropa ölkələri, həmçinin ABŞ və Yaponiyada ixrac əməliyyatlarına nəzarət həmin ölkələrin uyğun qanunvericiliyinə görə aparılır. Hər hansı əmtəələr və ya ölkələr üzrə məhdudiyyətlər tətbiq oluna bilər. Buna baxmayaraq əksər ölkələrdə ixrac prosesi azad rejimdə həyata keçirilir ki, bu da daha çox Avropa İttifaqı ölkələrinə xasdır. Həmin ölkələrdə valyuta nəzarəti məhsul və xidmətlərin maksimum dərəcədə ixrac olunmasına istiqamətlənmişdir ki, bu səbəbdən də məhdudiyyətlər minimum

səviyyədə tətbiq olunur. Əksər ölkələrdə müvəkkil təyin olunmuş ixracatçılar institutlar yaradılıb fəaliyyət göstərməkdədir. Belə institutlar ixrac olunan müəyyən məhsullar üçün lisenziya verir. Eyni zamanda istehsalçıların məhsullarının müəyyən hissəsi sertifikatlaşdırılır.

## 3.3. İxrac təşviqləri sisteminin formalaşdırılmasında xarici təcrübədən istifadə istiqamətləri

Ölkəmizdə ixrac sektorunu möhkəmləndirmək üçün köklü dəyişikliklər etmək lazımdır. Respublikamızda ixracın stimullaşdırılması və artırılması üçün müxtəlif qurumlar yaradılır, lakin maliyyə cəhətdən müəyyən çətinliklərin olması və başqa digər səbəblərlə tam nəticə əldə edilməmişdir. İxracın təşviqi və möhkəmləndirilməsi istiqamətində xarici təcrübənin öyrənilməsi və tətbiqi mühüm məsələlərdəndir. Uzun müddət öncə xaricdə yaradılmış İdxal İxrac Bankları və İxrac Kredit Agentlikləri mütləq şəkildə ölkəmizdə də yaradılmalıdır. Əsasən də Rusiya Federasiyasının bu sahədəki zəngin təcrübəsindən yararlanıb təcrübədə istifadə etmək məqsədəuyğun olar.

Rusiyada fəaliyyət göstərən Rusiya Federasiyası İqtisadi İnkişaf Nazirliyi tərəfindən malların və xidmətlərin xarici bazarlara çıxışı üçün şəraitin yaxşılaşdırılması və eyni zamanda (Strateji Təşəbbüskarlıq Agentliyi və Muxtar Qeyri-Kommersiya Təşkilatı ilə birlikdə) gömrük prosedurlarının sadələşdirilməsi, ixrac üçün inzibati maneələrin aradan qaldırılması üzrə tədbirlər hazırlanmışdır. Digət bir təşkilat olan ÜTT üzrə Ekspertiza Mərkəzi Rusiya Federasiyasının Hökuməti, İqtisadiyyat Ali Məktəbi və Rusiya Əmanət Bankı tərəfindən yaradılmışdır. Məqsəd isə Rusiya Federasiyasının ÜTT fəaliyyətində, eyni zamanda beynəlxalq ticarət mübahisələrində Rusiya Federasiyasının müvafiq nümayəndəliyinin ÜTT mübahisələrinin həlli üzrə orqanında iştirakını təmin etməkdir.

Rusiyada fəaliyyət göstərən digər bir bank – MSP Bank kiçik və orta sahibkarlığa maliyyə dəstəkləri proqramı həyata keçirir. Belə ki, bu bank Rusiya Federasiyasının hər bir regionunda, regional tərəfdaş olan banklar şəbəkəsi vasitəsi ilə kiçik və orta müəssisələrə kreditlər təklif edir. Həmçinin bu maliyyə dəstəyi ixrac əməliyyatlarının

inkişafı üçün də nəzərdə tutulmuşdur. Bundan başqa VTB Bank ASC və Sberbank of Russia ASC Rusiyanın ixrac əməliyyatları həyata keçirən şirkətlərinə beynəlxalq maliyyə əməliyyatlarında – akkreditivlər, toplama, bank köçürmələrində dəstək göstərir. Əlavə olaraq xarici ticarətdə zəmanət əməliyyatları aparmaq üçün də tam xidmət həyata keçirir. Həmçinin Rusiyada Sberbank qabaqcıl ixrac kredit agentlikləri tərəfindən 5 ildən 18 ilə qədər müddətə qədər təmin edilmiş layihələrin uzunmüddətli maliyyələşdirilməsini təşkil edir və müştərilərin xarici iqtisadi fəaliyyətinin təmin olunması üçün kreditlər ayırır. Rusiyada 1994-cü ildə yaradılmış Roseksimbank dövlətə məxsus ixtisaslaşmış ixrac-idxal bankıdır. Bu bank ixrac üçün dövlət təminatlarının təmin edilməsi üçün Rusiya Federasiyasının hökumət agenti kimi fəaliyyət göstərir, həmçinin ixrac əməliyyatları üçün öz zəmanətini və kreditləşdirilməsini həyata keçirir. 2011-ci ildə xarici İxrac Kredit Agentliklərin təcrübəsindən istifadə edilərək Rusiyada İxrac kredit Agentliyi yaradılmışdır və əsasən xammal olmayan məhsulların ixracının sığortalanmasını həyata keçirir. Əsas sığorta məhsulu olaraq isə təchizat kreditinin sığoratalaması, alıcının kreditinin sığortalanması, akkreditiv üzrə risklərin sığortası, ixrac kreditlərin sığortası və qarantiyaların sığortalanması və. s tətbiq olunur. Yaradılmış digər bir təşkilat Rusiya Federasiyasının Ticarət və Sənaye Palatası qeyri-kommersiya təşkilatı olmuşdur ki, bu təşkilat sahibkarlıqda və ümumi iqtisadiyyatda, eləcə də müəssisələrin XİF-nin inkişafında təkan verən qüvvələrdən biri olmuşdur. Rusiyada bu istiqamətdə fəaliyyət göstərən hər bir təşkilatların məqsədi eynidir – ixracı möhkəmləndirmək və stimullaşdırılmasını həyata keçirmək. Nümunə üçün isə Rusiya təcrübəsinə müraciət təsadüfi deyil. Çünki Azərbaycan və Rusiya arasında uzun illərdir sıx əlaqələr vardır. Bu əlaqələr siyasi və iqtisadi sahələrdə özünü büruzə vermişdir. Şübhəsizdir ki, qonşu dövlət olan Rusiya Federasiyası, ixracın stimullaşdırılması və inkişafı istiqamətində böyük uğurlar əldə etmiş və yeni təkliflər, layihələr reallaşdırmaqdadır. Bu və digər uğurları qazanmağa dünyada ən böyük əraziyə sahib olması, əhalisinin çox olması, zəngin təbii resurslara, siyasi və iqtisadi üstünlüklərə malik olması da şərait yaradır. Amma Azərbaycan öz

müstəvisində bir çox ölkəni qabaqlaya biləcək gücə və potensiala malikdir. Ölkəmiz bir çox sahələr üzrə dünya miqyasında öz sözünü demək iqtidarındadır. Bu baxımdan, qonşu ölkənin təcrübəsindən faydalanmaq, bu təcrübənin müsbət nəticələrini ölkəmizdə də tətbiq etmək respublikamızda ixracın stimullaşdırılmasına güclü təkan verər və bu ümumilikdə ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini vermiş olar.

Xarici təcrübənin öyrənilməsində uğurlu brendin yaradılması və iqtisasi inkişafa təsirinin öyrənilməsinə də mühüm yer ayrılmalıdır. Belə ki, hər hansı dövlətin uğurlu qlobal brendinin mövcud olması ölkənin tanınmağına və davamlı iqtisadi inkişafına mübət təsir etməsi səbəbindən bir çox ölkələr brendlərin yaradılması və inkişafına dəstək verilməsində maraqlıdır. Elə bu səbəblə ölkələr ilk olaraq müəyyən devizlərlə təşviqat kampaniyaları başladaraq beynəlxalq sferada ölkənin imicini tanıtmaq və yüksəltmək üçün tədbirlər həyata keçirirlər.

İsveçrə bir çox məhsul və xidmətlər üzrə - qol saatı, zinət əşyaları, şokalad, əczaçılıq məhsulları, bank - dünyanın ən yaxşı brendlərinin ixracatçısı kimi tanınır. İsveçrənin ən yaxşı Qlobal Brendləri 2015 reytinqinə əsasən, ilk onluqda Nescafe, Nestle, Rolex, Swisscom, ABB, Zurich brendləri qərarlaşmaqdadır. Eyni zamanda Omega, Nespresso, Patek Philippe, Geberit, Holcim, Tissot, PostFinance, Swatch, IWS, Hublot və s. brendlər siyahının davamı olaraq qeyd oluna bilər. İsveçrədə yerli brendlərin dəstəklənməsi qanunvericiliklə həyata keçirilməkdədir. Ölkədə qanunvericiliklə tənzimlənməkdə olan “Swissness” konsepsiyasına görə, yeyinti məhsullarının xammalının ən az 80%-i, süd məhsulları üzrə isə 100%-i yerli məhsullar olarsa, və sənaye məhsulları üzrə istehsal xərclərinin dəyərinin ən az 60%-i İsveçrədə yaranırsa İsveçrə brendi altında satıla bilər. İsveçrə brendi ilə xidmət həyata keçirməyi planlaşdıran şirkətlər üçün qarşıya qoyulmuş əsas tələb ondan ibarətdir ki, qərargah və ya əsas inzibati ofis bu ölkədə yerləşməlidir.

Türkiyə də hazırda aktiv brendləşmə siyasəti həyata keçirən ölkələrdəndir və tekstil, qida, inşaat, turizm, xidmət sahələrində bir çox məşhur brendləri ilə fərqlənir. Türkiyədə TürkTelekom, AkBank, İş Bankası, Türk Hava Yolları , Garanti Bankası,

Türkcell, Arçelik, BİM , Anadolu, YapıKredi Bankası ən yaxşı Markaları 2013 reytinqinə əsasən, ölkənin ilk onluqda qərarlaşan brendlərinə daxildir. VakıfBank, Migros, Ülker Bisküvi, Vestel, Aygaz, Sütaş, Pınar Süt, Kent Gida, Otokar, Tofaş və s. kimi digər brendlər siyahının davamı olaraq qeyd edilə bilər.

Türkiyədə İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə 2004-cü ildən başdılmış "Brendləşmə və Turquality" layihəsinin həyata keçirilməsində əsas məqsədlər müəssisə və firmaların brend gücünü və korporativ strukturunu möhkəmləndirmək, ölkədaxili brend şüurunun formalaşdırılması, brend ola biləcək məhsullar üzrə firmaların beynəlxalq brendə kimi inkişafı üçün maliyyə dəstəklərinin və məsləhət xidmətlərinin göstərilməsi, ölkəxarici istehlakçılarda müsbət Türk malı imicinin tanıdılması olmuşdur. Layihə ərzində reallaşdırılan patent, faydalı model qeydiyyatı, tanıtım, reklam, marketinq, ofis, depo, kirayə mağaza, sertifikatlaşdırma kimi dəstəklərə ən çox 50% maliyyə yardımı ilə illik 100min və 600min ABŞ dolları məbləği arasında maliyyə dəstəkləri göstərilmişdir.

Ölkəxarici Bölmə, Brend və Reklam Dəstəyi - Yurtdışı Birim, Marka və Tanıtım Desteği müddətində firmaların ölkə xaricində hər hansı bölməsinin yaradılması, onun brend qeydiyyatı, reklamı və marketinq xərclərinin ödənilməsinə ən çox 4 il müddətində maliyyə dəstəyi göstərilir. Belə ki, firmanın fəaliyyətə başlayacağı bölüm əgər mağaza olarsa, illik olaraq ən çox 120 min ABŞ dollarına qədər xərclərin 60 %-i, ofis, showroom ya da depo olarsa, isə ən çox 100 min ABŞ dollarına qədər xərclərin 60 %-i ödənilir. O cümlədən, brendin ölkə xaricində reklam, tanıtım və marketinq xərclərinin ən çox 150min ABŞ dolları olaraq 60 %-i, brendin ölkə xaricində qeydiyyata alınması və qorunmasının təmini xərclərinin ən çox 50min ABŞ dolları olaraq 50 % ödəniş təmin edilir.

Sərgilərdə İştirak Dəstəyi - Fuar Katılım Desteği proqramı çərçivəsində ölkə xaricində həyata keçirilən Türk ixrac malları sərgilərində iştirak üçün ən çox 10.000 ABŞ dolları, sahəvi xarakterli beynəlxalq sərgilərdə iştirak üçün isə ən çox 15.000 ABŞ dolları olmaqla xərcin 50 %-i həcmində maliyyə yardımları edilir.

Təcrübəsindən istifadə olunacaq ölkələrdən biri də Almaniyadır. Alman inkişaf modelinə çox vaxt Lüdviq Erhard modeli olaraq da adlandırılır. Müəyyən müddət Almaniyada baş nazir olan Lüdviq Erhard demişdir: "İqtisadiyyat hər cür totalitaristlərin müdaxiləsindən qanunvericilik sistemi ilə mühafizə olunmalı, dövlət bazarı sili qaydalarla müdafiə etməli, istehsalçıları sosial populizmdən qorumalıdır. İqtisadçı-islahatçı Lüdviq Erhard xüsusi sahibkarlığın azadlığı məqsədilə əlverişli mühitin yaradılması üçün çox səmərəli tədbirlər reallaşdırmışdır. Belə ki, istehsalı stimullaşdırmaq istiqamətində aşağı vergi dərəcələri tətbiq etmiş, qiymətlərin sərbəstləşdirilməsi yönündə antitrest və antikartel fərmanları imzalamış, xüsusi investisiya yatırımları üçün güzəştlər tətbiq etmiş, ölkədaxili bazarın xarici rəqabətə davamlı fəaliyyəti üçün iqtisadi mexanizmlər reallaşdırmış və əlverişli idarəetmə strukturu yaratmışdır. Beləliklə alman "iqtisadi möcüzə"sinin təməlini qoymuşdur.

Almaniyada yüksək inkişaf etmiş nəqliyyat sistemi mövcuddur. Bu system həm daxili, həm də Avropanın mərkəzi hissəsində yerləşməsi sayəsində tranzit daşımalarda istifadə olunur. Yük daşımalarının 20%-i su nəqliyyatı ilə daşınır ki, bu gğstəriciyə əsasən də Avropa ölkələri arasında liderdir. Həmçinin bu ölkə dünyada ixracın payına görə də liderlik edir. Ölkədə ideya və innovasiyaların zənginliyinin göstəricisi olan patentlik yüksək inkişaf edib. Başlıca olaraq Almaniya iqtisadiyyatının öndə olan nümunəvi sahəsi maşınqayırmadır. Eləcə də biotexnologiyalar, bərpa olunan enerji mənbələrindən istifadəyə görə liderlər sırasındadır. Hər il ölkədə 200 min müəssisə yeni məhsulları bazara çıxarır ki, bunlardan da 35 mini sırf elmi araşdırmalarla məşğul olur.

İxrac payı yüksək olan ölkələrdən olan Çinin professorlarından biri qeyd edir: "Çin torpağının inkişafında hər kəs – dövlət məmuru da, alim də eyni səviyyədə maraqlıdır. Elmi tövsiyyələrə biganəlik xalqın inkişafına biganəlik olardı ki, bu hala da burada yol verilmir..". Çinin "açıq qapı" siyasətinə model olaraq olaraq nəzər yetirək. Belə ki, 1980-ci ildə ölkəyə investisiya cəlb etmək üçün iqtisadi zonaların yaradılmasına başlanır. Bu iqtisadi zonalar ölkənin əyalətlərində mərhələli olaraq ardıcıl yaradılır. Xarici investorların cəlb olunmasında əsas məqamlar isə azad ticarətin

mövcudluğu, bu sahədə dövlət dəstəyinin olması, ucuz işçi qüvvəsinin çoxluğu olmuşdur. Eləcə də güzəştli vergi və gömrük rüsumları, xüsusi hüquqi rejim və zonaların Sakit okean sahilllərində yaradılması sayəsində xarici investorların fəaliyyətinin asanlaşdırılması və ümumilikdə isə bu sahəyə dövlət qayğısının olması tezliklə bəhrəsini vermişdir. Bundan başqa ölkə iqtisadiyyatının inkişafında Çin diasporunun dəstəyini də qeyd etmək lazımdır. Çünki diasporun inkişaf siyasəti nəticəsində xaricdə bizneslə məşğul olan milyonlarla çinli ölkə iqtisadiyyatına kapital yatırımları edir ki, bu da öz növbəsində iqtisadi inkişafa müsbət təsir edir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ölkəmizdə rəqabətqabilliyyətli ixrac imkanlarının təşviqi və idxalda diversifikasiyanın təmin olunması həm ixrac üçün əhəmiyyətli ölkədaxili məhsul və xidmətlərin beynəlxalq bazara çıxarılması üçün əlverişli şərait formalaşdırır, eyni zamanda milli istehsalçı müəssisələrin beynəlxalq rəqabətin təsirlərindən məqsədyönlü müdafiəsininin təmininə səbəb olur. İxrac məhsullarının diversifikasiyası maksimal effektiv və optimal struktura malik ixraca nail olmağa, ölkə ərazisindən ixrac olunan məhsulların çeşid baxımından artırılmasına və tədricən ixracın struturunda keyfiyyətcə yüksək texnologiyalı məhsulların xüsusi çəkisinin yüksəlməsinə zəmin yaradır.

Respublikamızda ixracın təşviqi istiqamətində aşağıda qeyd olunan metodlar tətbiq oluna bilər:

- Müəyyən qədər vergi dərəcələrində, o cümlədən gömrük tariflərində güzəştlər tətbiq olunması;
- Sənaye sahələrinin perspektiv sahələri ilə inhisarlar arasında əlaqələrin tənzimlənməsi;
- Beynəlxalq ticarətlə əlaqədar prioritet sahələrə məqsədli investisiya yönəldilməsi üçün proqramlar işləyib hazırlamaq;
- İxracın təşviqində mühüm prioritet olaraq lizinq üzrə təkmilləşmənin təmin olunması;
- İxrac və idxal əməliyyatlarında kredit xidmətlərinin həyata keçirilməsi üçün yüksək səviyyədə inkişafa malik təşkilatların yaradılması;
- Azad iqtisadi zonaların bir qolu olaraq xüsusi ixraca yönəlik və elmi-texniki zonaların təşkil edilməsi.

Ümumilikdə isə ölkəmizdə ixrac potensialından istifadənin yüksəldilməsi, eləcə də ixracının gücləndirilməsi və genişləndirilməsi, üçün aşağıdakı tədbirlərin reallaşdırılması vacibdir:

- Azərbaycan mənşəli müqayisəli üstünlüyə malik məhsulların dünya bazarlarına çıxış imkanlarını artırmaq məqsədi ilə ixracatçı müəssisə və firmaların beynəlxalq sərgi və yarmarkalarda iştirakını stimullaşdırılmaq;

- tarif dərəcələrini optimallaşdırılmaq, qeyri-tarif məhdudiyyətlərinin azaltmaq, ölkədaxili istehsalın artımını dəstəkləyə biləcək və iqtisadi təhlükəsizliyi təmin edə biləcək idxal siyasəti tətbiq etmək;

- ticarət prosesini asanlaşdırmaq, o cümlədən ticarət zamanı rəsmiləşdirmə müddətini qısaltmaq, eyni zamanda bununla bağlı xərclərin azaldılması üzrə işləri davam etdirmək;

- hazırda ixrac olunan, həmçinin ixrac potensialına malik olan məhsul və xidmətləri keyfiyyət standartlarına uyğunlaşdırmaq, yüksək keyfiyyətdə məhsul istehsal edən müəssisələri stimullaşdırmaq və milli brendlərin yaradılmasını dəstəkləmək;

- beynəlxalq ticarət sferasında xarici təcrübəni öyrənmək və xarici ticarət siyasətinin təkmilləşdirilməsi məqsədi ilə milli maraqlara uyğun müasir ticari siyasət metodları işləyib hazırlamaq;

- Yerli kənd təsərrüfatı mənşəli məhsullara xarici bazarlarda tətbiq edilən diskriminasiya tədbirlərini araşdırmaq, ehtiyac olarsa müvafiq tədbirlər görmək.

# ƏDƏBİYYAT SİYAHISI


1. Abdullayev Z. S., Abbasov A. B. “Neft sənayesinin iqtisadiyyatı və idarə edilməsi”, Bakı 2000;

2. Azərbaycan 2020: Gələcəyə baxış inkişaf konsepsiyası. Azərbaycan Respubikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir;

3. Azərbaycan Respublikası Prezidentinin 2014 cü il 26 dekabr tarixli Sərəncamı. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020 ci illər üçün Dövlət Proqramı”;

4. Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Bakı 2019;

5. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları. AR Prezidentinin 24 iyun 1997-ci iltarixli, 609 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur. Bakı, 1997;

6. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləsdirilməsi sahəsində əlavə tədbirlər haqqında AR Prezidentinin Fərmanı, Bakı, 14 may 2010-cu il;

7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi; AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir;

8. Bayramov Ə. İ., Hacıyev Ş. H. . “Beynəlxalq iqtisadiyyat” Bakı, 1998;

9. Əliyev A. Ə. “Azərbaycanın iqtisadi siyasəti. Azərbaycanın xarici ticarət iqtisadi əlaqələri”,Bakı 2003;

10. Əzizov Ş. E. “İdxal-ixrac əməliyyatlarina valyuta nəzarətinin təkmilləşdirilməsi problemləri” iqtisad üzrə doktorluq dissertasiyası, Bakı 2016, s.57;

11. “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında” Azərbaycan Respublikasının Qanunu – 02 fevral 2009;

12. İmanquliyev B.T., Dünya bazarında yeni brend “Made in Azerbaijan” [Mətn], 8 aprel 2017.

13. Mehdiyev E. A. "Azərbaycanın ÜTT-yə üzv olmasının əhəmiyyəti və problemləri", Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu);

14. Qeyri-neft məhsullarının ixracının stimullaşdınlması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikasının Sərəncamı. 18 yanvar 2016;

15. Sultanov C. Ə. "İxrac potensialı sisteminin strukturu və inkişaf xüsusiyyətləri". "Hüquqi dövlət və qanun". Bakı, 2008;

16. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə., Şəkərəliyeva Z.A. "Gömrük işinin təşkili və idarə edilməsi", Bakı 2018;

17. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A "Gömrük işinin təşkili və idarə edilməsi", Bakı 2014;

**İnternet resursları**

1. www.president.az;
2. www.economy.gov.az;
3. www.cabmin.gov.az;
4. www.anfes.gov.az;
5. https://data.worldbank.org/;
6. www.azpromo.az;
7. www.aic.az;
8. http://static.president.az;
9. http://wto.az;
10. https://exportpotential.intracen.org/;
11. http://caspianbarrel.org;
12. www.iqtisadiislahat.org;
13. www.exiar.ru;
14. https://ticaret.gov.tr;
15. www.eximbank.ru;
16. https://brandirectory.com;
17. www.brandhorizons.com;

18. https://www.s-ge.com;
19. https://www.turquality.com;
20. https://ticaret.gov.tr;
21. http://www.mfa.gov.az/az/content/173/
22. https://www.stat.gov.az/source/trade/
23. http://ebooks.az/view/K2agNVnY/
24. https://aic.az/az/pages/id:86
25. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=13
26. https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2019/30175/

## Cədvəllərin siyahısı


Cədvəl 1:Xarici iqtisadi fəaliyyətin növləri və formaları ........................................ 19
Cədvəl 2:İxracın əmtəə strukturu ........................................................................ 40
Cədvəl 3:İxracın coğrafi quruluşu ........................................................................ 41
Cədvəl 4:Prioritet elan olunmuş qeyri-neft sektorlarının beynəlxalq seçim meyarlarına görə qiymətləndirilməsi ................................................................................. 47
Cədvəl 5:AİŞ üçün prioritet məhsulların siyahısı ................................................... 48


## Qrafiklərin siyahısı


Qrafik 1: Qeyri-neft sənayesinin artım tempi .......................................................... 39